

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Günün mübarək, Kəlbəcər!




9

SƏS

№ 216 (6899)

25 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Bakı yenidən diqqət mərkəzində - SPECA-nın Zirvə görüşü keçirilib




2

PREZİDENT İLHAM ƏLİYEV: "SPECA-ya üzv ölkələrdə sülhün, sabitliyin hökm sürməsi, inkişaf dövlətlərimizin və xalqlarımızın böyük uğurudur"

# USAİD korrupsiya ilə mübarizəni, korrupsiyanı təşviq etməklə aparıb




13

### Rusiyalı ekspert: Ermənistanın yekun təslimi sülh müqaviləsi ilə rəsmiləşəcək"



5

### Əlinizi şillə üçün yox, tumar üçün qaldırın



15

### Pensiyalarla bağlı qaydalar dəyişdi: yenilik nədir?



16

### Yaşayış yerində qeydiyyatda olanların yaşayış sahəsində pay hüququ varmı?



16

### Bəşəriyyət erməni vəhşiliyindən qorunmağın yollarını araşdırır



14

# Bakı yenidən diqqət mərkəzində - SPECA-nın Zirvə görüşü keçirilib

## PREZİDENT İLHAM ƏLİYEV: "SPECA-ya üzv ölkələrdə sülhün, sabitliyin hökm sürməsi, inkişaf dövlətlərimizin və xalqlarımızın böyük uğurudur"

***Bakı yenə də diqqət mərkəzindədir - Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı - SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşü keçirilib. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksək səviyyəli rəsmiləri iştirak ediblər.***

Qeyd edək ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı 1998-ci ildə yaradılıb. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

Azərbaycan SPECA-ya 2002-ci ildə qoşulub və fəal üzvlərdəndir. Belə ki, SPECA İdarəetmə Şurasının və İqtisadi Forumunun 1-ci iclası Bakıda keçirilib və 2016-cı ildə Azərbaycan quruma sədrlik edib. Həmin ilin noyabr ayında Gəncə şəhərində İdarə Heyətinin 11-ci iclası və İqtisadi Forum keçirilib. Müvafiq dövlət orqanları, o cümlədən İqtisadiyyat Nazirliyi SPECA-nın İşçi qruplarında fəal iştirak edir. 2023-cü ildə də SPECA-ya sədrliyi Azərbaycan Respublikası həyata keçirir. Görüşün məğzi birgə fəaliyyətin aktuallaşmasıdır. Region dövlətləri arasında bütün sahələrdə, xüsusilə, iqtisadi sahədə əlaqələrin gücləndirilməsi, genişləndirilməsi prioritetdir. Proqramın həyata keçirilməsi təmsil olunan dövlətlərin iqtisadi inkişafına səbəb olacaq. Bu məsələdə Azərbaycanın təşəbbüsü, rolu danılmazdır. Zirvə toplantısının Azərbaycanda keçirilməsi Azərbaycanın aparıcı rol oynamasına bir işarədir. Və son 15-20 il ərzində Azərbaycan çox önəmli beynəlxalq tədbirlərin keçirildiyi bir məkan kimi seçilib və sözügedən görüş həm də Ermənistan üçün bir dərsdir, mesajdır ki, düşmənçilikdən əl çəksələr, bu əməkdaşlığa qoşula bilərlər.







Qeyd edək ki, 2023-cü ildə SPECA-ya sədrliyi Azərbaycan Respublikası həyata keçirir. Bu il SPECA-ya sədrlik Azərbaycandan Tacikistana keçib. Növbəti 19-cu SPECA sammiti gələn il Tacikistanın paytaxtı Düşənbədə keçiriləcək. Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib və bildirib ki...

### SPECA-YA ÜZV ÖLKƏLƏRDƏ SÜLHÜN, SABİTLİYİN HÖKM SÜRMƏSİ, İNKİŞAFI DÖVLƏTLƏRİMİZİN VƏ XALQLARIMIZIN BÖYÜK UĞURUDUR

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında deyib ki, SPECA yarananda üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar: "Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik".

Ölkələrimizi birləşdirən amillər arasında siyasi sabitliyi xüsusi vurğulayan dövlətimizin başçısı bildirib: "Sabitik olmadan heç bir iqtisadi inkişafdan söhbət gedə bilməz. Bu gün dünyanın müxtəlif bölgələrində müharibələr, münaqişələr, qanlı toqquşmalar geniş vüsət alıb. Bizim ölkələrimizdə isə sülh, sabitlik, əmin-amanlıq hökm sürür, inkişaf, quruculuq prosesləri uğurla gedir. Bu, dövlətlərimizin və xalqlarımızın böyük nailiyyəti və uğurudur".

Azərbaycan Prezident ionu da vurğulayıb ki, dünyada uğursuz, asılı, bir neçə ağaya xidmət edən ölkələrin sayı az deyil, onlardan biri Ermənistandır: "Belə ölkələrə, sözün əsl mənasında, müstəqil ölkə demək olmaz. Belə ölkələrin siyasəti xalqlarının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir. SPECA-ya üzv dövlətlər isə əsl müstəqil ölkələrdir, çünki müstəqil xarici və daxili siyasət aparırlar".

### SPECA HƏFTƏSİ ƏRZİNDƏ BAKIDA TƏŞKİL OLUNAN İQTİSADİ FORUM ÖLKƏLƏRİMİZ ARASINDAKI BİZNES ƏLAQƏLƏRİNİN İNKİŞAFINA TÖHFƏ VERƏCƏK

"Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondunun təsis olunmasını təqdirəlayiq addım hesab edirik. Azərbaycan bu Fonda 3,5 milyon ABŞ dolları ayıracaq. SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında deyib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır. "Sentyabr ayında mən Düşənbədə keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə ilk dəfə fəxri qonaq kimi dəvət olunmuşam. Dəvətə görə bir daha təşəkkür edirəm. Hazırkı Zirvə görüşünü Düşənbə görüşünün məntiqi davamı kimi qiymətləndirirəm", - deyə Azərbaycan Prezidenti qeyd edib.

### AZƏRBAYCANIN GÜCLÜ İQTİSADİYYATI MÜSTƏQİL XARİCİ SİYASƏT KURSU HƏYATA KEÇİRMƏYƏ İMKAN YARADIR

Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında deyib ki, Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır.

Azərbaycanın son iyirmi ildəki inkişafının əsas göstəricilərini diqqətə çatdıran dövlətimizin başçısı bildirib: "Son 20 il ərzində Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artmışdır. Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb".

Ardı Səh. 3

# Bakı yenidən diqqət mərkəzində - SPECA-nın Zirvə görüşü keçirilib

## PREZİDENT İLHAM ƏLİYEV: "SPECA-ya üzv ölkələrdə sülhün, sabitliyin hökm sürməsi, inkişaf dövlətlərimizin və xalqlarımızın böyük uğurudur"

Əvvəli Səh. 2

Prezident İlham Əliyev son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyulduğunu deyib və bildirib ki, ölkəmizdə əlverişli investisiya mühiti yaradılıb: "Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür".

"Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib", - deyə dövlətimizin başçısı bildirib.

### İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ SIFIRDAN YENİ ŞƏHƏRLƏR VƏ KƏNDLƏR İNŞA EDİRİK




"Müstəqilliyimizin ilk illərində ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazilərinin təxminən 20 faizi Ermənistan tərəfindən işğal edilmişdi. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Otuz ilə yaxın aparılan danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistanın məqsədi işğalı qoruyub saxlamaq idi. 2019-cu ildə Ermənistanın baş nazirinin o vaxt işğal altında olan Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlar prosesini tamamilə




məhv etdi".

Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Zirvə görüşündə çıxışında deyib.

Dövlətimizin başçısı bildirib ki, Ermənistan bundan sonra da öz öhdəliklərini yerinə yetirmədi. Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar: "Buna cavab olaraq və "boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirləri keçirdik. Cə-




mi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq. Bu tarixi Qələbə münasibətilə Azərbaycanı təbrik edən bütün ölkələrə təşəkkürümü bildirirəm".

Dövlətimizin başçısı onu da bildirib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik və ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib: "Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz də-




də-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq". Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə




qayıdacaq.

Bir sözlə, Bakıda Prezident İlham Əliyevin sədrliyi ilə yaradılmasının 25-ci ildönümündə SPECA-nın Zirvə görüşünün təşkil indiki mürəkkəb geosiyasi situasiyada Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin qlobal müstəvidə qələbəsi hesab edilməlidir.

Zirvə görüşündə dövlət başçımızın söylədiyi kimi: "Çıxışımın sonunda dövlət və hökumət başçılarına dəvətimi qəbul edib Zirvə görüşündə iştirak etdiklərinə görə bir daha təşəkkür edir və Zirvə görüşünün əlaqələrimizə yeni təkan verəcəyinə əminliyimi bildirirəm".

***RƏFİQƏ KAMALQIZI***






# Azərbaycan etibarlı tərəfdaş, mühüm əməkdaşlıq qovşağıdır

## Prezident İlham Əliyev Körfəz Əməkdaşlıq Şurasının SPECA-nın Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə gələn bir sıra dövlət və hökumət başçıları ilə görüşüb









Dünən Prezident İlham Əliyev dünən Körfəz Əməkdaşlıq Şurasının Baş katibi Casim Məhəmməd əl-Budeyvini qəbul edib. Dövlətimizin başçısı Körfəz Əməkdaşlıq Şurasının SPECA-nın Zirvə görüşündə iştirakını yüksək qiymətləndirdi, Azərbaycanın təşkilata üzv dövlətlərlə çox yaxın tərəfdaşlıq münasibətlərinin olduğunu vurğuladı. Prezident İlham Əliyev Körfəz Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçıları ilə şəxsi dostluq əlaqələrinin olduğunu, bu ölkələrlə müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini bildirdi, investisiyalar, bərpaolunan enerji, turizm və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük perspektivlərin mövcudluğunu qeyd etdi. Azərbaycan Prezidenti respublikamızda və Mərkəzi Asiya ölkələrində siyasi sabitliyin tam təmin olunduğunu, ölkələrimizin siyasi, iqtisadi, demoqrafik amillər baxımından sürətlə inkişaf etdiyini vurğuladı.

Dövlətimizin başçısı ölkəmizin Mərkəzi Asiya regionu ilə inteqrasiyası prosesinin dinamik getdiyini, Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin vahid geosiyasi, iqtisadi və siyasi məkan, Xəzər dənizinin bizi birləşdirən dəyər olduğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev gələcəkdə Azərbaycan, Mərkəzi Asiya və Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr arasında əməkdaşlıq üçün böyük perspektivlərin mövcudluğunu bildirdi. Baş katib SPECA-nın Zirvə görüşünün Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırdı. Qonaq Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələrin Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə əlaqələrin hərtərəfli inkişafına böyük əhəmiyyət verdiyini qeyd etdi, münasibətlərin müxtəlif sahələrdə inkişafını vurğuladı, siyasi, iqtisadi, investisiyaların artırılması və digər istiqamətlərdə böyük perspektivlərin olduğunu dedi. Görüşdə hazırda dünyada islamofobiya meyillərinin artması və ona qarşı mübarizənin aparılması məsələləri də müzakirə edildi.

Prezident İlham Əliyev dünən Tacikistan Prezidenti Emoməli Rəhmon ilə də görüşüb.

**Prezident İlham Əliyev:**

- Hörmətli Emoməli Şaripoviç, Sizi Azərbaycanda salamlayıram. Sizinlə yenidən görüşməyimə şadam. Dəvəti qəbul etdiyinizə və SPECA Proqramının Sammitində iştirakınıza görə sağ olun. Görüşmək, danışmaq, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq gündəliyini müzakirə etmək üçün daha bir yaxşı fürsətdir. Həmçinin Mərkəzi Asiya dövlət başçılarının Məşvərət Şurasının iclasında yeganə fəxri qonaq qismində iştirak etmək üçün dəvətinizə görə bir daha təşəkkürümü bildirmək istərdim. Mən bunu yüksək qiymətləndirirəm. Bunu dostluq və hörmət əlaməti hesab edirəm.

Münasibətlərimiz çox uğurla inkişaf edir. Son vaxtlar biz Sizinlə müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafını dəfələrlə müzakirə etmişik. Əminəm ki, Sizin hazırkı səfəriniz də münasibətlərimizin möhkəmləndirilməsi nöqteyi-nəzərindən əhəmiyyətli olacaq. Nümayəndə heyətlərimizin üzvləri artıq sıx təmasdadır, həm dünən görüşüblər, həm də bu gün davam edirlər. Çoxlu planlar, layihələr var. Ən əsası isə xalqlarımızın qardaşlığıdır, əminəm ki, ortaq gələcəyimizdir.

**Prezident Emoməli Rəhmon:**

- Hörmətli İlham Heydər oğlu, çox sağ olun. SPECA-nın yubiley Sammitinə dəvətə görə təşəkkür edirəm. Səmimi qəbul üçün sağ olun.

İkitərəfli qarşılıqlı fəaliyyətimiz həm ticarət sahəsində, həm də humanitar müstəvidə dinamik şəkildə inkişaf edir. Azərbaycanlı dostlarımızın uğurlarına sevinirik, ölkəniz inkişaf edir. Düzgün qeyd etdiniz ki, son illər, xüsusən Sizin Düşənbəyə dövlət səfərinizdən sonra nazirliklərimiz və idarələrimiz çox fəal əməkdaşlığa başlayıblar. Çoxlu proqramlar işlənib hazırlanır, biz indi bu barədə danışırıq. Dəvətinizə görə sağ olun. Növbəti ildə olacaq səfərə hazırlaşırıq. Biz indi bunun üzərində işləyirik və müvafiq orqanlarımız qarşılıqlı fəaliyyət göstərir. Zənnimcə, bu, ikitərəfli münasibətlərimizə güclü təkan verəcək. Bu gün isə mən Sizinlə münasibətlərimizin mövcud vəziyyətini və perspektivlərini, regional problemləri müzakirə etməyə hazıram.

Prezident İlham Əliyev dünən həmçinin Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə görüşüb. Qırğızıstan Prezidenti Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün bərpa olunması münasibətilə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təbriklərini çatdırdı, bunun Cənubi Qafqazda sülh və sabitlik üçün yeni şərait yaratdığını qeyd etdi. Qırğızıstan Prezidenti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə də təbriklərini çatdırdı.

Prezident Sadır Japarov qırğız xalqının böyük oğlu Çingiz Aytmatovun şərəfinə Bakıda abidənin ucaldılmasını yüksək qiymətləndirdi, buna görə minnətdarlığını bildirdi. Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin daim bir-birinə dəstək göstərdiyi vurğulandı. Prezident Sadır Japarov qeyd etdi ki, Qırğızıstan həmişə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib.

Prezident İlham Əliyev xalqımızın Ulu Öndəri Heydər Əliyevin 100 illik yubileyi, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası münasibətilə təbriklərinə görə Qırğızıstan Prezidentinə minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafı və birbaşa aviareyslərin təşkil olunması müsbət addım kimi qeyd edildi. Azərbaycan-Qırğızıstan İnvestisiya Fondunun yaradılmasının önəmi vurğulandı.

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 24-də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb. Qazaxıstan Prezidenti Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün bərpa olunması münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdi, bu uğurlara dövlətimizin başçısının müdrik siyasəti nəticəsində nail olunduğunu vurğuladı.

Prezident Kasım-Jomart Tokayev hazırda Füzuli şəhərində Kurmanqazı adına yaradıcılıq mərkəzinin inşasının Qarabağda həyata keçirilən bərpa-quruculuq işlərinə bir töhfə olduğunu qeyd etdi. Prezident İlham Əliyev təbrikə və Kurmanqazı adına yaradıcılıq mərkəzinə görə Qazaxıstan Prezidentinə təşəkkürünü bildirdi. Prezident Kasım-Jomart Tokayev atası, görkəmli qazax yazıçısı Kemel Tokayevin 100 illik yubileyinin keçirilməsinə və "Gecə açılan atəş" əsərinin çapdan çıxmasına görə minnətdarlığını ifadə etdi.



Görüşdə Azərbaycanın və Qazaxıstanın beynəlxalq təşkilatlarda daim bir-birini dəstəkləməsi, ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi məmnuniyyətlə qeyd olundu. Qazaxıstan neftinin Azərbaycan ərazisindən daşınması və ölkəmizin nəqliyyat imkanlarından istifadə edilməsi, bütövlükdə nəqliyyat-logistika imkanlarının və Transxəzər nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı. Həmçinin "Rəqəmsal İpək Yolu" layihəsinin və Xəzər dənizinin dibi ilə xəttin çəkilməsi məsələsinin əhəmiyyəti və burada ölkələrimizin işbirliyi məmnuniyyətlə qeyd olundu. Eləcə də Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında orta dəhliz üzrə multimodal əməkdaşlığın qurulması və bu xüsusda ayrıca şirkətin yaradılması həmin istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişaf etdirilməsi baxımından müsbət irəliləyiş kimi vurğulandı. Söhbət zamanı SPECA-nın əhəmiyyəti xüsusi vurğulandı, bu Zirvə görüşünün Proqramın 25-ci ildönümünə həsr olunduğu qeyd edildi.

Prezident İlham Əliyev dünən Özbəkistan Prezidenti Şavkat Mirziyoyevlə görüşüb. Görüşdə ölkələrimiz arasında əlaqələrin hərtərəfli dinamik inkişafından məmnunluq ifadə olundu, dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyəti qeyd edildi. Özbək xalqı adından Füzuli şəhərində Mirzə Uluqbəy adına orta məktəb binasının inşasına görə minnətdarlıq bildirildi. SPECA-nın 25 illiyinə həsr olunan Zirvə görüşünün önəmi, eləcə də Azərbaycanın və Mərkəzi Asiyanın geosiyasi, iqtisadi və siyasi baxımdan vahid məkan olduğu vurğulandı.

İqtisadi-ticari əlaqələrin müxtəlif sahələrdə, həmçinin yeni əməkdaşlıq istiqamətlərində genişləndirilməsi ilə bağlı konkret layihələr müzakirə edildi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də mədəni və humanitar sahələrdə əməkdaşlıq məsələləri qeyd olundu.

Prezident İlham Əliyev noyabrın 24-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb. Baş nazir İrakli Qaribaşvili SPECA-nın Zirvə görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi, SPECA-nın 25 illiyi münasibətilə təbriklərini çatdırdı. Gürcüstanın Baş naziri Azərbaycanın SPECA-ya sədrliyi dövründə bu Zirvə görüşünün keçirilməsini yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Gürcüstana səfərini və səfər çərçivəsində aparılan müzakirələri məmnuniyyətlə xatırladı.

Söhbət əsnasında Azərbaycan ilə Gürcüstan arasında mehriban dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu. Transxəzər nəqliyyat dəhlizinin inkişafı və bu xüsusda Gürcüstan, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin artırılması məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# Rusiyalı ekspert: Ermənistanın yekun təslimi sülh müqaviləsi ilə rəsmiləşəcək"

**Rusiyalı hərbi ekspert Aleksandr Xramçixin Ermənistan-Azərbaycan nizamlanmasındakı vəziyyət və gözlənilən proseslər haqda "Caliber" analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Aleksandr Anatolyeviç, sizcə, ABŞ-ın bölgəmizdəki fəallığının səbəbi nədir?***

- Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq. Mən əminəm ki, bu, amerikalıların səy göstərdiyi yeganə məqsəddir.

***- Bunun üçün Ermənistandan istifadə edirlər?***

- Bəli. Bu baxımdan mən Ermənistanın son kapitulyasiyasını görürəm, görünür, bu, onun KTMT-dən çıxması və Rusiya hərbi bazasının Gümrüdən çıxarılması ilə tamamilə başa çatmalıdır. Baxmayaraq ki, İrəvan hələlik bunu inkar edir. Amma məncə, məntiqlidir. Məqsəd bundan ibarətdir. Bütün bunlardan sonra Ermənistana maraq bütün nüfuzlu qüvvələr tərəfindən itir. Onda da Türkiyə Ermənistanın taleyini həll edəcək.







***-Yəni, Rusiya bazasının oradan çıxarılmasından sonra Amerika hərbi bazalarının Ermənistanda yerləşdirilməsi ehtimalını qəbul etmirsiniz?***

- Baxın. Amerikalılar Gürcüstana daxil olmadılar, baxmayaraq ki, Cənubi Qafqazda Gürcüstandan daha çox amerikapərəst ölkə tapmaq mümkün deyil. Deməli, onlar Ermənistana da daxil olmayacaqlar. Onların indiki vəziyyətdə kifayət qədər resursları belə yoxdur.

***- Ermənistan KTMT-nin köməyinə ümid etmədiyini bildirdi. Bu, həm də hərbi blokdan çıxmağa hazırlığın işarəsi kimi qəbul edilə bilərmi?***

- Yəqin ki, bəli.

***- Doğrudanmı Rusiya buna qarışmayacaq və Ermənistanı sakitcə buraxacaq?***

- Düşünürəm ki, Ermənistan həqiqətən də getmək istəyirsə, o zaman onu buraxmamaq mümkün olmayacaq.

***- Ermənistan tərəfi indi müxtəlif səviyyələrdə "Dünyanın kəsişməsi" adlanan layihəni təşviq etməyə çalışır və bunu Aİ də bəyənir. Bu təşəbbüsün Zəngəzur dəhlizinin açılışını tormozlamaq üçün irəli sürüldüyü fikrini bölüşürsünüzmü?***

- Tamamilə mümkündür. Aİ-ni dəstəkləməyə gəlincə, onların regionda öz iştiraklarını və istəklərini nümayiş etdirmələrinin sülh və firavanlıq üçün olmadığı göz qabağındadır. Sadə dillə desək, bütün bu demaqogiya özlüyündə heç nə ifadə etmir, lakin çoxları üçün çox cəlbedici görünür.

***- Paşinyan hansı məqsədlə Azərbaycandan Ermənistana guya təhlükə olması ilə bağlı təxribat xarakterli bəyanatlar səsləndirir?***

- Paşinyan, görünür, özü üçün nə isə bazarlıq etmək, bacardığı hər kəsdən hansısa üstünlük əldə etmək istəyir. Baxmayaraq ki, onun daha nəyə arxalandığını bilmirəm.

***- Tutaq ki, ABŞ Rusiyanı regiondan sıxışdırdı, bundan sonra Ermənistana hansı rol həvalə olunacaq?***

- Ermənistanın dəyəri sıfır olduğu üçün onların başqa nəyə ehtiyacı olduğunu bilmirəm. Erməni diasporu yəhudi diasporası qədər nüfuzlu deyil. Çox güman ki, Ermənistan ciddi qəbul edilməyəcək.

***- İrəvan inteqrasiya layihələrindən çıxdıqdan sonra Rusiya ilə Ermənistan arasında münasibətlər necə olacaq?***

- Rusiya ilə Ermənistan arasında münasibətlər Türkmənistanla təxminən eyni olacaq.

***- Əvvəllər Bakı ilə İrəvan arasında sülhün bağlanmasının labüdlüyünü qeyd etmisiniz. Bu gün də eyni fikirdəsiniz?***

- İndi buna heç bir şübhə yoxdur.

***- Müşahidələrinizə görə, ortamüddətli perspektivdə Cənubi Qafqazda hansı proseslər gedəcək?***

- Ermənistan nəhayət sülh müqaviləsi imzalamaq şəklində təslim olur, mən sizin regionda başqa xüsusi hadisə görmürəm.

***- Rusiya-Ukrayna müharibəsinin gələcək ssenarisini necə görürsünüz?***

- Müharibə uzana bilər, çox şey Rusiya, Ukrayna və Qərbin rəhbərliyindən asılıdır. Kimin nə oynayacağını dəqiq söyləmək çətindir. Hər tərəfdən həddindən artıq qeyri-adekvatlıq və həddindən artıq maraqlar var. Amma nəzərə alsanız ki, tükəndirmə müharibəsi gedir, o zaman böyük ehtimalla burada Rusiya Qərbə qalib gələcək.

***Tərcümə - Elçin Bayramlı***

# Qərb dairələri nə üçün USAID barədə tədbir görmür?

USAID-də aşkarlanan korrupsiya faktları ilə bağlı qərb dairələri və beynəlxalq təşkilatlar tərəfindən heç bir tədbir görülmür. Mövzu ilə bağlı SİA-ya danışan siyasi şərhçi Tural İsmayılovun fikrincə, qərb imperialist dairələri erməni lobbisinin çirkli pullarının əsirinə çevrilib və bu gün ABŞ-də konqresmenlərin və fondların içərisində erməni dairələrinə bağlı olan çox ciddi qüvvələr var: "Onlar daim Azərbaycan əleyhinə çirkab fəaliyyətlə məşğuldurlar. Bu gün əgər ABŞ konqresində təmsil olunan insanların haqqında cinayət işləri qaldırılırsa, onların korrupsiya ilə məşğul olması barədə ortada faktlar varsa biz USAID-in də bu məsələyə hansısa obyektiv rəy verəcəyini gözləyə bilmərik. Bütövlükdə bu gün erməni lobbi adı altında çirkli pul yuma mexanizmləri qurulub. Bu mexanizmlər dünyadakı erməni lobbisinin Azərbaycan və Türkiyə əleyhinə əsas alətə çevrilib. Bu gün Samanta Pauer həmin bu təşkilatların və şəbəkələrin qulbeçəliyi rolunu üstlənib. Hesab edirəm ki, bunlar olduqca dünyada heç vaxt ədalət, beynəlxalq münasibətlər sistemində bərabərlik bərpa olunmayacaq. USAID-in korrupsiyasına göz yumanlar bu gün qərb dəyərlərindən, insan haqqlarından və hansısa "hüquqlar"dan danışırlar. Amma faktiki olaraq bundan danışan insanların özü bütövlükdə qlobal hüquqda böhrana səbəb olan addımlar atırlar. Bunun da kökündə USAID və bu tip təşkilatların korrupsiya çirkabına bulaşmağı dayanır".

Qafqaz Strateji Araşdırmalar Mərkəzinin (KAFKASSAM) sədri Hasan Oktayın fikrincə isə dünyada birinci dərəcəli sayılan dövlətlər sosial fəaliyyətlər vasitəsilə digər dövlətlər üzərində yumşaq güc yaratmaq üçün fəaliyyətlər həyata keçirirlər: "Soros işini ən mahir görən təşkilatlardan biridir. Bundan əlavə, dövlətlərin törəmə qurumları kimi fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da var. Bu məqamda dünyanın bir çox yerində Amerikanın USAID adlı yardım və qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Əsasən Ermənistan, Azərbaycanda və digər ölkələrdə fəaliyyət göstərən bu qeyri-hökumət təşkilatı zaman-zaman dövlət idarələrinə də müdaxilə edir. Belə qeyri-hökumət təşkilatlarında korrupsiya ilə bağlı narahatlıq və şübhə çox vaxt ön plana çıxır, çünki onlar öz fəaliyyət sahələrində sosial yardım adı altında iqtisadi mobilliyi də cəlb edirlər. Azərbaycan-ABŞ münasibətlərindəki son gərginlik bu qeyri-hökumət təşkilatını diqqət mərkəzinə çəkib. USAID öz daxilindəki korrupsiya və ya qanunsuzluqdan daha çox beynəlxalq münasibətlərdə bu və buna bənzər gərginliklərdən irəli gələn reaksiya ilə üzləşir".

***Rəşid Qarayev***

# Prezident İlham Əliyevin SPECA-nın Zirvə görüşündə səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir

**Dünən Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşü Gürcüstan mətbuatının diqqət mərkəzində olub.**

Belə ki, ”realnews.ge”, ”sputnik-georgia.ru”, ”qafqazturk.com”, ”aktual.ge”, ”interpressnews.ge”, ”24news.ge”, ”1tv.ge”, ”kavkasia.net, ”adjaratv.ge”, ”newsday.ge” portalları tədbir barədə silsilə materiallar dərc ediblər. Azərbaycan, gürcü, rus və ingilis dillərində yayımlanan xəbərlərdə SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən Zirvə görüşünün əhəmiyyəti xüsusi qeyd olunur.

İnformasiya portalları və televiziyalar, eyni zamanda, Azərbaycan Prezidentinin Zirvə görüşündəki çıxışı və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşü barədə də informasiyalar yayıblar.

”Kavkasia.net” portalında dərc olunan materialda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından gətirilən sitatda deyilir: ”Dünyada eyni vaxtda iki və ya daha çox stulda oturmaq, bir neçə ağaya qulluq etmək istəyən və özlərini daha böyük dövlətlər arasında qarşıdurma meydanına çevirən bir çox uğursuz asılı ölkələr var. Onlardan biri də Ermənistandır. Belə ölkələri, sözün əsl mənasında, müstəqil adlandırmaq olmaz. Belə ölkələrin siyasəti öz xalqının iradəsinə əsaslanmır, onların taleyi xarici sponsorların əlindədir”.

”Realnews.ge” saytında yayılan xəbərdə də Prezident İlham Əliyevin çıxışından fikirlər oxuculara çatdırılıb. Materialda bildirilib: ”Bu günlərdə BMT Baş Assambleyasında SPECA-nın 25 illiyi ilə əlaqədar qəbul edilmiş qətnaməni alqışlayırıq. BMT-nin himayəsi altında SPECA Etimad Fondu təsis edilib. Azərbaycan bu Fonda 3,5 milyon ABŞ dolları ayıracaq. SPECA həftəsi ərzində Bakıda təşkil olunan iqtisadi forum ölkələrimiz arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bakı Ekspo Mərkəzində təşkil edilmiş sərgi ölkələrimizdə gedən inkişafı əyani şəkildə göstərir”. Eyni zamanda, bildirilib ki, Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır.

Portalın digər xəbərində isə deyilir ki, hazırda Azərbaycanın işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.


MKRU TELEGRAM «МК»
Алиев заявил о переселении в Карабах 140 тысяч человек
ПОДЕЛИТЬСЯ
ФОТО: KREMLIN.RU
Президент Азербайджана Ильхам Алиев анонсировал планы возвращения в Карабах вынужд... переселенцев. До 2026 года в ре...


РАДИО 1
В Азербайджане заявили о возведении ста новых населённых пунктов в Карабахе
Президент Алиев: Азербайджан возводит в Карабахе сто населённых пунктов
24 ноября 2023, 13:56
Фото: iStock/Serhii Ivashchuk
...рбайджан возводит с нуля 100 ...селённых пунктов, в числе которых ...ять городов и восемь посёлков на


АРГУМЕНТЫ И ФАКТЫ AIF.RU
24.11.2023 15:54
Примерное время чтения: 1 минута
Алиев: Азербайджан с нуля возводит в Карабахе девять городов
Commons.wikimedia.org
Москва, 24 ноября - АиФ-Москва.
Азербайджан с нуля возводит в Ка... 100 населенных пунктов, в том чис... девять городов и восемь поселко... этом заявил глава республики Ил... Алиев в Баку на саммите Спецпрограммы ООН для эконо...


ТАСС 24 ноября, 13:29
Первый этап восстановления Карабаха и Восточного Зангезура охватит 100 населенных пунктов
Президент Азербайджана Ильхам Алиев сообщил, что в рамках программы "Великое возвращение" до конца 2026 года в Карабах и Восточный Зангезур вернутся 140 тыс. вынужденных переселенцев
Читайте ТАСС в Новости Дзен
БАКУ, 24 ноября. /ТАСС/. Программа восстановления Карабаха и Восточного ...зура на первом этапе охватит 100 ...енных пунктов. Об этом сообщил ...дент Азербайджана Ильхам Алиев, ...ая на саммите Специальной программы ...н экономик стран Центральной Азии


Алиев заявил о возводимых Азербайджаном с нуля городах в Карабахе
Алиев: Азербайджан возводит в Карабахе девять городов и восемь поселков
24 ноября 2023 в 14:14
AZERBAIJAN
Фото: president.az
Ильхам Алиев
Азербайджан возводит в Карабахе новые го... села, заявил президент республики Ильхам... Алиев на саммите Специальной программ... для экономик стран Центральной Азии (S... Баку. По его словам, планируется восстан... 100 населенных пунктов, передает РИА Н... В их числе девять городов и восемь посел...


профиль
Новости
Алиев: Азербайджан в Нагорном Карабахе восстановит 100 населенных пунктов
По словам президента Азербайджана, запланировано возрождение девяти городов в регионе
Поделиться
Азербайджан на территории Нагорного Карабаха возводит 100 населенных пунктов, в том числе восемь поселков и девять городов. Об этом сообщил азербайджанский президент Ильхам Алиев в пятницу, 24 ноября.


LENTA.RU Игры
Алиев обвинил Армению в попытке усидеть на двух стульях
14:12, 24 ноября 2023 Бывший СССР
Алиев: Армения пытается усидеть на двух и более стульях, не являясь независимой
Власти Армении стремятся «усидеть на двух или более стульях». Об этом президент Азербайджана Ильхам Алиев заявил, выступая на саммите

Dövlətimizin başçısının nitqindən gətirilən digər sitatda qeyd olunur: ”İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib. ”Keçmiş məcburi köçkünlər ”Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq”.

”Aktual.g”e portalında yayılan materialda isə vurğulanıb: ”Biz ölkəmizdə əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür”.

”Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib”, - deyə Prezident İlham Əliyev diqqətə çatdırıb.

”Qafqazturk.com” dərc olunan xəbərdə dövlətimizin başçısının fikirlərinə istinadla bildirilib: ”Azərbaycanda əlverişli investisiya mühiti yarada bilmişik. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib”. ”Sputnik-georgia.ru” saytı Azərbaycan Prezidenti ilə Gürcüstan Baş nazirinin görüşü barədə material yayıb. Xəbərdə deyilir ki, görüşdə əsas diqqət iki ölkə arasında çoxəsrlik, mehriban qonşuluq, dostluq münasibətlərinə yönəldilib və Azərbaycanın Gürcüstanın aparıcı ticarət tərəfdaşlarından biri olduğu bildirilib.

Bundan başqa, Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının - SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə çıxışı Rusiya mətbuatında da geniş işıqlandırılıb.

”Moskovskiy komsomolets” qəzeti Azərbaycan Liderinin çıxışına istinadla 2026-cı ilədək Qarabağa və Şərqi Zəngəzura 140 minədək qaçqın və məcburi köçkünün doğma yurduna qayıdacağını bildirib. Qəzet azad olunmuş ərazilərdə yeni şəhər və kəndlərin inşa olduğunu diqqətə çatdırıb.

TASS agentliyi Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda ilkin mərhələdə 100 yaşayış məntəqəsinin bərpa olunacağını bəyan etdiyini bildirib. Agentlik xatırladıb ki, Prezident İlham Əliyev bir müddət əvvəl 2024-cü ildə Qarabağda bərpa işlərinə büdcədən 2,4 milyard dollar ayrılacağını vurğulamışdı.

Bu ölkənin ”Arqumenti i faktı”, ”News.ru”, ”Lenta.ru”, ”Profile.ru” nəşrlərində, telekanallarında və radiolarından yayımlanan informasiyalarında da Azərbaycan Prezidentinin Zirvə görüşündə səsləndirdiyi fikirlərə geniş yer verilib.


QafqazTürk Media\Gürcüstan'da xəbər saytı
2daq.
İlham Əliyev:” 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq”

## Meksika mətbuatında Qərbin Azərbaycana qarşı ikili standartları ifşa edilib

Meksikanın geniş oxucu kütləsinə malik olan və ölkənin ən nüfuzlu ”El Universal” qəzetində ”Mirajlar və reallıqlar: Qərbin Qafqazda ikili standartları siyasətinin ifşası” sərlövhəli məqalə dərc edilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Meksikadakı səfirliyindən məlumat verilib.

Bildirilib ki, Meksika Milli Muxtar Universitetinin professoru, siyasi şərhçi Talya İşcanın müəllifi olduğu məqalədə otuzillik erməni işğalından sonra Azərbaycan ərazilərinin azad edilməsi və Ermənistan daxil olmaqla, bütün dünya tərəfindən Azərbaycan ərazisi kimi tanınan Qarabağ bölgəsində Azərbaycan silahlı qüvvələri tərəfindən həyata keçirilən antiterror tədbirlərinin ABŞ və Avropa İttifaqının bəzi ölkə və KİV-lərinin ikili standartlarını və təxribat xarakterli hərəkətlərini açıq şəkildə ortaya qoyduğu bildirilir.

Yazıda Qərbdə çox vaxt erməni separatçılarına dəstək göstərən, ölkəmizə qarşı qərəzli və əsassız neqativ mənzərənin müşahidə olunduğu vurğulanır, Ukrayna məsələsində ərazi bütövlüyü prinsipini müdafiə edən Qərbin Azərbaycana münasibətdə həmin prinsipə qarşı etinadsız münasibətinin paradoksal olduğu qeyd olunur, ABŞ kimi ölkələrin dünyanın müxtəlif bölgələrində antiterror əməliyyatları adı altında həyata keçirdiyi əməliyyatların daha az tənqidə səbəb olduğu bildirilir.


EL UNIVERSAL SUSCRÍBETE
Espejismos y realidades: desentrañando la política de doble rasero occidental en el Cáucaso
Talya Iscan
Talya Iscan
TALYA ISCAN | 19/11/2023 | 03:59 |

Məqalədə Azərbaycanın öz ərazilərini işğaldan azad etdikdən sonra regionda nisbi sakitliyin yarandığı, hazırda burada yenidənqurma prosesinin həyata keçirildiyi bildirilir. Buna baxmayaraq, Qərbin aktorlarının bu mərhələyə dəstək göstərmək əvəzinə regionda gərginliyi saxlamaqda, onların sanki Rusiyanın əvvəlki təsirini öz təsirləri ilə əvəzləməkdə maraqlı olduqlarının müşahidə edildiyi qeyd olunur.

Müəllif iki aya yaxındır ki, Azərbaycan və Ermənistan arasındakı şərti sərhəddə atəşkəsin pozulmamasını müsbət siqnal olduğunu vurğulayır, lakin bunun avropalılar və amerikalılarda sevinc deyil, daha çox narahatlıq yaratdığını təəccüblə qeyd edir.

Məqalənin sonunda hazırda bölgədə müharibə riskinin olmadığı, lakin Qərbin hipotetik ”Azərbaycan təhlükəsi”ni bəhanə gətirərək Ermənistanda hərbi mövcudluğunu gücləndirməkdə qərarlı göründüyü qeyd olunur, həmçinin Qərb KİV-lərində Azərbaycana qarşı bu qərəzli narativin məqsədyönlü şəkildə geniş yayılması, habelə C.Borrelin Azərbaycana qarşı təzadlı bəyanatının Qərbin Qafqazda öz təsirini gücləndirmək kimi açıq və aydın strateji məqsədə xidmət etdiyi bildirilir.

# Orta Dəhliz əməkdaşlığı

*Yaxud, Mərkəzi Asiya dövlətlərinin Azərbaycana artan marağı*

**Bu gün Azərbaycan bütün dünyanın diqqət mərkəzindədir. Səbəblər birrəqəmli deyil. 44 günlük müharibədən sonra əldə edilən imkanların birgə realizə edilməsi təşəbbüsləri region və qeyri-region ölkələrin bizə olan münasibətində müsbətə doğru dəyişkənliklər açıq-aydın görünməkdədir. Bəzi ölkələr var ki, hələ də zor dilində danışmağa üstünlük verir, bu da alınmayanda gecikmiş etiraflarla dolu, həm də qeyri-müəyyən addımlar atır. "Nezavisimaya qazeta"da maraqlı məqalə dərc edilib. Oxucularımıza şimal qonşumuzun mətbuat çərçivəsindən görünənləri çatdıracağıq.**

Noyabrın 24-də Bakıda BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramında (SPECA) iştirak edən ölkələrin dövlət başçıları səviyyəsində sammit keçiriləcək. Platformanın mövcud olduğu 25 il ərzində yalnız bu il ölkələr arasında ticarət dövriyyəsi artıb, nəqliyyat dəhlizləri fəaliyyətə başlayıb, lakin gömrük prosedurlarının sadələşdirilməsi və SPECA Fondunun yaradılması imkanları artıq müzakirə olunur. Yeni logistika infrastrukturlarının aktivləşdirilməsi isə Rusiyanın iştirakını nəzərdə tutmur.







Bu, SPECA liderlərinin 1998-ci ilin martında təsis edildiyi vaxtdan bəri ilk görüşüdür. Sonra Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan, habelə BMT-nin Avropa İqtisadi Komissiyası və BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının icraçı katibləri tərəfindən Daşkənd Bəyannaməsi imzalanıb. Daha sonra proqrama Türkmənistan, Azərbaycan və Əfqanıstan da qoşulub. Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət Görüşündə iştirak etdiyi zaman Mərkəzi Asiya dövlət başçılarını SPECA sammitində iştirak etməyə dəvət edib. Çətin ki, liderlərdən heç biri belə təklifdən imtina etsin, baxmayaraq ki, indiyədək yalnız Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Bakıya səfər edəcəyini bəyan etmişdi. Noyabrın 23-də isə Özbəkistan Prezidentinin Azərbaycana gələcəyi barədə xəbər verilib.

İlham Əliyev noyabrın 22-də Bakı Ekspo Mərkəzində SPECA ölkələrinin: "Dayanıqlı İnkişaf naminə Regional Əməkdaşlıq" sərgisini açıb. Burada platformada iştirak edən ölkələrin mal və məhsulları: Özbəkistandan olan avtomobillər və məişət texnikası, Türkmənistan xalçaları və Qırğızıstanın kumısı və xalq sənətkarlıq sənətləri təqdim olunur. Tacikistan iqtisadiyyatın rəqəmsallaşdırılmasına diqqət ayırıb.

"Cənubi Qafqaz" politologiya klubunun rəhbəri İlqar Vəlizadə hesab edir ki, prezidentlər SPECA çərçivəsində əməkdaşlığa yeni təkan verəcək, çünki əvvəllər nazirliklərin nümayəndələri və ekspert qrupları səviyyəsində görüşlər keçirilirdi: "Bu platformanın gələcəyi dövlət başçılarının sammitində hansı qərarların qəbul edilməsindən asılı olacaq". Hər halda, ölkələrin bir-biri ilə daha fəal əməkdaşlığa başladığı faktdır.




Azərbaycan dənizə çıxışı olmayan SPECA ölkələrinə öz infrastrukturundan istifadə etmək imkanı verib. Bunu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov keçirilən "SPECA regionunun qlobal əhatəli əlaqə mərkəzinə çevrilməsi" adlı iqtisadi forumda deyib: "Açıq dənizə çıxışın olmaması müəyyən məhdudiyyətlər qoyur. Belə olan halda biz bu ölkələrin tam inteqrasiyası və infrastrukturundan tam istifadə üçün əməkdaşlığa hazırıq. Bu əməkdaşlıqda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu kimi layihələr mühüm rol oynayacaq".

İqtisadiyyat Nazirliyinin rəhbəri Qazaxıstanın SPECA-ya üzv ölkələr arasında Azərbaycanın ən mühüm tərəfdaşlarından biri olduğunu vurğulayıb. Azərbaycan Qazaxıstandan bir sıra mallar, o cümlədən nəqliyyat vasitələri, neft-kimya məhsulları, taxıl və minerallar idxal edir. "Hər iki ölkə zəngin enerji resurslarına malikdir. Azərbaycan və Qazaxıstan arasında tərəfdaşlıq iqtisadiyyatımızın inkişafına töhfə verir. Sənaye sektorunda əlavə inkişafın təmin edilməsinə imkanlar yaradır", - Cabbarov qeyd edib. Onun sözlərinə görə, Azərbaycanla digər SPECA ölkələri arasında ticarət dövriyyəsi artır: "Bu ilin 10 ayı ərzində ötən ilin müvafiq dövrü ilə müqayisədə 16% artaraq 1,2 milyard dollara çatıb. 2022-ci ildə ticarət dövriyyəsinin həcmi 1,3 milyard dollara çatmışdır ki, bu da 2021-ci illə müqayisədə 3,6% çoxdur".

İqtisadiyyat naziri vurğulayıb ki, ticarət dövriyyəsinin artması gələcək əməkdaşlıq potensialının daha bir sübutudur: "Müvafiq ölkələrlə ticarət əlaqələrimizi dərinləşdirməyə davam etdikcə, biz həmçinin artan əlaqə və infrastrukturun inkişafına ehtiyac olduğunu dərk etməliyik. Bura gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması, minalardan təmizləmə və transsərhəd daşıma, həmçinin siyasi prosedurların unifikasiyası daxildir".

Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibinin müavini Dmitri Maryasin müsbət irəliləyişləri qeyd edib: "SPECA ölkələrinin dünya iqtisadiyyatında payı üç dəfədən çox artıb. Platforma ölkələri arasında əlaqələr getdikcə artır. SPECA dövlətləri beynəlxalq səviyyədə qəbul edilmiş standartları milli prioritetlərinə və ehtiyaclarına cavab verən şəkildə tətbiq etməlidirlər".

Bu, artıq dördüncü platformadır ki, region dövlətləri Rusiyanın maraqlarını nəzərə almadan öz qonşuları ilə əməkdaşlıq edirlər. İlqar Vəlizadənin sözlərinə görə, Avrasiya İqtisadi İttifaqına (AİI) rəqib olacaq hansısa bir alyansın yaradılmasından hələlik danışmaq mümkün deyil: "Çünki, məsələn, SPECA-nın heç bir institusionallaşdırma və ya əlaqələndirici qurumları yoxdur. Amma digər təşkilatlarda, məsələn, İqtisadi Əməkdaşlıq Təşkilatında (ECO) bu var. Regionu birləşdirən digər struktur Türk Dövlətləri Təşkilatıdır (TDT). SPECA çərçivəsində söhbət bütün iştirakçılar arasında nəqliyyat əlaqəsi səviyyəsinin artırılmasından gedir. Çin, Əfqanıstan, Cənub-Şərqi Asiya ölkələrindən gələn marşrutlar Qazaxıstan, Xəzər dənizi və Azərbaycandan keçməklə Türkiyəyə, Yaxın Şərq ölkələrinə və Avropaya gedəcək. Məqsəd bütün marşrutları vahid nəqliyyat sxemində birləşdirməkdir. Məhz bu platforma onun həyata keçirilməsi üçün daha sərfəlidir".

Avropa ölkələri Mərkəzi Asiyaya can atır, münasibətlər qurulur, müqavilələr imzalanır. Yüklərin daşınması məsələsinə gəlincə, Qərbin burada bir az problemləri ola bilər. Niyə ehtimalla danışırıq? Bu gün siyasətdən istəsək də qaça bilmərik. Ölkələr arasında münasibətlərin qurulmasında milli maraqların nəzərə alınması vacib elementlərdəndir. Nəzərə alsaq ki, Avropanın aparıcı ölkəsi olan Fransanın Cənubi Qafqazdakı ikibaşlı oyunu bütün qalan məsələlərə təsirsiz ötüşmür və bu münasibət davam etdikcə iqtisadi müqavilələrin həyata keçirilməsində əngəllər yaranacaq, onda Brüssel, Vaşinqton və Paris bir az düşünsələr yaxşıdır...

**V.VƏLİYEV**

# İslam dünyasının gücü birliyindədir




"Qlobal böhranların, bəşəriyyət qarşısında duran yeni sınaq və çətinliklərin, islamofobiyanın geniş yayıldığı dövrdə müsəlman dövlətlərinin bir-birinə qarşılıqlı dəstək göstərməsi, İslam birliyinin gücləndirilməsi olduqca vacibdir." Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin V konfransının iştirakçılarına

Müraciətində bildirib. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini bildirən dövlət başçımız Təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin tərəfdarı olduğunun qeyd edib:"2009-cu ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Bakı şəhəri İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin sahəvi nazirlərinin bir çox iclaslarına ev sahibliyi etmişdir. Bugünkü konfrans da İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığın genişləndirilməsi və birgə səylərin gücləndirilməsi baxımından böyük önəm daşıyır".

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir. Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət etmiş və 1991-ci ilin dekabrın 8-də İƏT-in Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Xatırladaq ki, həmin dövrdə, erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan ölkəmiz üçün öz haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması çox vacib məsələlərdən idi. Artıq 1991-ci ildə İslam Konfransı Təşkilatının (İKT) nümayəndə heyəti problemi öyrənmək və münaqişəni sülh yolu ilə tənzimləmək imkanlarını araşdırmaq məqsədi ilə Azərbaycanda səfərdə olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanı Krallığına səfəri Azərbaycan İKT əməkdaşlığının gələcək inkişafı üçün zəmin yaratmaqla yanaşı, səfər əsnasında onun müqəddəs Kəbədə Ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün İslam dövlətlərinin ölkəmizə maraq və diqqətini artırmışdır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının müxtəlif qurumları - İSESKO, İslam İnkişaf Bankı, İslam Konfransı Parlament İttifaqı, İslam Konfransı Gənclər Forumu və s. ilə sıx əməkdaşlıq edir.

## "BEYNƏLXALQ HÜQUQUN VƏ ƏDALƏTİN TƏNTƏNƏSİNİ ÖZÜMÜZ TƏMİN ETDİK"

Azərbaycan "İslam dünyasının BMT - si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatının da fəal üzvüdür. 2017-ci ildə ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilmiş və bu il çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir. 2017-ci ildə Azərbaycan İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 dekabr 2017-ci il tarixli və 10 yanvar 2018-ci il tarixli sərəncamları ilə İƏT və Qoşulmama Hərəkatına üzv ölkələrin tələbələri üçün öz təhsillərini Azərbaycanın aparıcı ali təhsil müəssisələrində davam etdirməyə təqaüd ayrılmışdır.

Əlbəttə ki, müxtəlif sahələrdə iqtisadi, siyasi, sosial və s. qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanın bu təşkilata üzv olması ilə beynəlxalq aləmdə respublikamızın qarşısında yeni imkanlar açılıb. Hazırda Azərbaycan təşkilatının fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində iştirak edir, təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. "Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Təşkilatın səylərini davamlı olaraq dəstəkləyir" - deyə müracətdə qeyd edən Cənab Prezident 2023-cü ilin Azərbaycan üçün xüsusilə əlamətdar il olduğunu bildirib: "Otuz il ərzində ərazilərimizdə mövcud olan "boz" zonanı aradan qaldıraraq və separatizmə son qoyaraq ölkəmizin suverenliyini, konstitusiya quruluşunu bərpa etdik, bununla da beynəlxalq hüququn və ədalətin təntənəsini özümüz təmin etdik".

Bildiyimiz kimi, İslam Əməkdaşlıq Təşkilatı torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğalı ilə nəticələnmiş münaqişənin həlli ilə bağlı bir neçə qətnamə qəbul etmişdi. İƏT Xarici İşlər Nazirlərinin Şurası tərəfindən "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü", "Azərbaycana iqtisadi yardımın göstərilməsi" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" adlı qətnamələr qəbul edilmişdi. Bu məsələ hər zaman təşkilat tərəfindən istər qətnamələrdə, istər sammit çərçivəsində, istərsə də xarici işlər nazirlərinin qətnamələrində yer alıb. İƏT Azərbaycanın haqq işini hər zaman dəstəkləyib və bu, təşkilat üçün prioritet olaraq qalıb. İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 10-da Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında əldə olunmuş humanitar atəşkəs razılaşmasını pozması və bunun nəticəsində bir çox mülki şəxsin həlak olması və yaralanması ilə bağlı narahatlığını ifadə etmişdir. Bildiyimiz kimi, İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi İslam irsinin ayrılmaz hissəsi olan Qarabağda və ətraf rayonlardakı tarixi abidələrin vəziyyəti ilə əlaqədar dərin narahatlığını bildirmişdi. Bu haqda İƏT-in yaydığı bəyanatda, maddi və mənəvi dəyərlərin, xüsusən Qubadlı rayonunun azad edilmiş Məmər kəndindəki məscidin qəsdən dağıdılması və talan edilməsi, tarixin mənimsənilməsi və saxtalaşdırılması təcavüz siyasətinin bariz sübutu olduğu göstərilirdi. İşğal olunmuş ərazilərdə əsrlərboyu qalmış dini-mədəni irslərdən sui-istifadə beynəlxalq qanunların və konvensiyaların, o cümlədən "Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunmasına dair 1954-cü il Haaqa Konvensiyası"nın və 1954, 1999-cu il protokollarının açıq şəkildə pozulmasıdır. Xarici işlər nazirləri Şurasının 46-cı iclasında İƏT "İslamın müqəddəs yerlərinin qorunması haqqında" 3/46-S saylı Qərar qəbul etmişdir. Qərarda erməni təcavüzkarları tərəfindən Azərbaycan Respublikasında İslama aid tarixi və mədəni irsin tamamilə məhv etmək məqsədi, barbar hərəkətləri pislənilmişdi. Müraciətdə qeyd olunduğu kimi, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycana qarşı otuz il davam edən təcavüzünü və işğalçı siyasətini hər zaman pisləmiş, həm İkinci Qarabağ müharibəsi zamanı, həm də postmüharibə dövründə Azərbaycanın haqq işini, ərazi bütövlüyünü daim və ardıcıl şəkildə dəstəkləmişdir: "Təəssüflər olsun ki, işğal illərində şəhər və kəndlərimiz Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, mədəni və dini abidələrimiz məhv edilmişdir. Bundan başqa, Ermənistan işğal altında saxladığı ərazilərimizdə ilkin qiymətləndirmələrə görə bir milyona yaxın mina basdırmış, burada urbisid, kultursid və ekosid törətmişdir. Xalqımızın mədəni irsinə qarşı soyqırımı törətmiş ermənilər məscidlərimizi yerlə-yeksan edərək yalnız bizim deyil, bütün dünya müsəlmanlarının hisslərini təhqir etmişlər. İslam Əməkdaşlıq Təşkilatı əvvəllər işğal altında olmuş ərazilərimizdə İslam tarixi və mədəni abidələrinin, ziyarətgahlarının Ermənistan tərəfindən dağıdılmasını və talan olunmasını qəti şəkildə pisləmiş, məscidlərin təhqir olunmasını şiddətlə qınamışdır. Buna görə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərə və Təşkilatın Baş Katibliyinə bir daha təşəkkürümüzü bildiririk".

## ERMƏNİLƏR MƏSCİDLƏRİMİZİ YERLƏ-YEKSAN EDƏRƏK YALNIZ BİZİM DEYİL, BÜTÜN DÜNYA MÜSƏLMANLARININ HİSSLƏRİNİ TƏHQİR ETMİŞLƏR

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığını vurğulayan dövlət başçımız infrastruktur layihələri həyata keçirildiyini bildirib. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər artıq dədə-baba yurdlarına - Laçın və Füzuli şəhərlərinə, o cümlədən üç kəndə qayıdıblar. 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura geri dönməsi planlaşdırılıb. Cənab Prezident

müraciətində on il əvvəl də Bakıda İslam Əməkdaşlıq Təşkilatının əmək nazirlərinin konfransının keçirilməəsinin əlamətdar hal olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: "Burada qəbul edilən "Çərçivə sənədi"nə əsasən əmək, miqrasiya və sosial müdafiə sahələrində təcrübə mübadiləsinə dair gələcək prioritetlər müəyyən olunmuşdur. Konfrans çərçivəsində, mənzil-qərargahı Bakıda olmaqla İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin yaradılması təşəbbüsü tərəfimdən irəli sürülmüşdü və bu təşəbbüsü üzv ölkələr yekdilliklə dəstəkləmişlər. Ötən dövrdə İslam Əməkdaşlıq Təşkilatının Bakıda Əmək Mərkəzinin yaradılması istiqamətində mühüm işlər görülmüşdür. Mərkəzin üzv ölkələr arasında əməkdaşlığın daha da güclənməsində vacib rol oynayacağına əminəm".

## İŞSİZLİK VƏ YOXSULLUĞUN SƏVİYYƏSİ AZALARAQ 5,5%-Ə DÜŞÜB

Azərbaycanda son illər ərzində sosial sahədə rəqəmsallaşma üzrə mühüm işlər görüldüyünü bildirən Cənab Prezident dövlət sosial xidmətlərinin innovativ yanaşmalar, müasir texnologiyalar üzərində qurulması, sosial sahədə vətəndaşlara şəffaf, çevik, keyfiyyətli, əlçatan və vətəndaş məmnunluğuna uyğun xidmətlər sisteminin formalaşdırılması sosial islahatlar proqramının əsas hədəflərindən biri olduğunu müraciətində diqqətə çəkib. "ASAN xidmət"dən sonra Azərbaycanın yeni brendinə çevrilən "DOST" mərkəzləri ölkəmizin dövlət sosial xidmətləri sahəsində inqilab yaradıb. Təbii ki, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi də qarşıya qoyulan məqsədlər sırasında yer alıb. Müraciətdə vurğulandığı kimi, ölkəmizdə həyata keçirilən kompleks islahatlar nəticəsində məşğulluq imkanları artmış, işsizlik və yoxsulluğun səviyyəsi ciddi şəkildə azalaraq 5,5%-ə düşmüş, sosial ödənişlərdə dəfələrlə artımlar edilmişdir: "Təkcə son dörd ildə qəbul edilmiş 4 sosial islahat paketi ilə əhalimizin 40%-i əhatə olunmuş, minimum əməkhaqqı 2,7 dəfə, əməkhaqqı fondu 2,6 dəfə, median əməkhaqqı 2,1 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya isə 2 dəfə artmışdır".

Əlbəttə ki, Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin əmək nazirlərinin 5-ci konfransı üzv ölkələrin əməkdaşlığının genişləndirilməsində mühüi rol oynayacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Günün mübarək, Kəlbəcər!

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 25 noyabr Kəlbəcər şəhəri günüdür. Günün mübarək, Kəlbəcər!

27 il əsarətdə qalan bu qədim yurd yerimizin üç il əvvəl işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, əsilzadəliyi, insanpərvərliyi ilə qalacaqdır. Kəlbəcərin işğaldan azad olunması ilə xalqımız iki böyük qürurlu səhifə açdı müasir tariximizdə: Kəlbəcər 27 illik işğaldan azad olundu. Azərbaycan xalqı bu yurdu 27 il əsarətdə saxlayan, sərvətlərini talayan, tarixi binaları, məktəb, xəstəxana və digər sosial obyektləri, evləri uçurub-dağıdan düşmənə bu torpaqdan çıxması üçün 10 gün daha vaxt verdi. Tək bu fakt 44 günlük Vətən müharibəsində Azərbaycan haqqında bəzi xoşagəlməz fikirlər yürüdən dövlətlərə çox dəyərli cavabdır. Üçtərəfli razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkəmizin Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. O mərhələ ki bu addımla Azərbaycan xalqının kimliyini bir daha dünyaya bəyan etdi.









## Blitzkriq əməliyyatı ilə işğal olunan Kəlbəcər

Blitzkriq alman sözüdür. Blitz (ildırım), krieg (müharibə) sözlərinin birləşməsindən yaranıb. Mənası sürətli qələbə qazanmaq üçün gərgin hərbi kampaniya, ”şimşək müharibəsi”dir. Bu kampaniya XX əsrin əvvəllərində alman feldmarşalı Alfred fon Şliffen tərəfindən yaradılıb. Blitzkriq zirehli tanklar və hava dəstəyi də daxil olmaqla, hərəkətli, manevr gücləri istifadə edərək düşmənə sürətli, fokuslanmış bir zərbə vurmaq üçün hazırlanmış hücum müharibəsi metodunu təsvir etmək üçün istifadə olunan bir termindir. Belə bir hücum ideal olaraq əsgər və topçu itkisini məhdudlaşdıraraq sürətli bir qələbəyə səbəb olur. I Dünya müharibəsində almanlar blitzkriqi Polşa, Norveç, Belçika, Hollandiya, Fransaya, II Dünya müharibəsində isə Rusiyaya tətbiq etmiş və uğurlu nəticələr qazanmışlar.

Maraqlıdır, bunu ermənilər Kəlbəcərə necə tətbiq etmişdilər? Sovetlər Birliyinin 15 müttəfiqindən biri Azərbaycan idisə, digəri də Ermənistan idi. Nəzərə alsaq ki, Azərbaycan Ermənistandan bütün dövrlərdə zəngin bir ölkə olub, 70 il sonra 1990-cı illərdə Azərbaycan iqtisadi cəhətdən o vəziyyətdə idisə, gör indi Ermənistan hansı vəziyyətdə imiş. Yox, unutduğum fərqli bir məsələ var: erməni yaltaqlığı, riyakarlığı. Həmin dövrdə Sovetlər Birliyi özünü yenidən dirçəltmək üçün ermənilərdən hərtərəfli istifadə edirdi. Elə blitzkriq əməliyyatı da ermənilərə havadarlıqlarının növbəti məsləhəti idi. Faktlar da bunu təsdiq edir: Rusiya mənbələrinə görə, Ermənistanda yerləşdirilən 128-ci alayın (7-ci Rusiya Ordusu) dağ qoşunları Kəlbəcəri blitzkriq əməliyyatı ilə ələ keçirdi. İlk ağır müqavimətdən sonra Azərbaycan qoşunları tezliklə dağıldı və rayon mərkəzi 1993-cü il aprelin 3-də işğal olundu.

Hadisələrə bu günün prizmasından yanaşdıqda ermənilərin Kəlbəcərdəki alman blitzkriq əməliyyatı ilə bağlı belə bir qənaətə gəlirəm ki, onlara bu əməliyyat yəqin ulu babaları Qaregin Ter-Artyunyanın (Nijde) uzun illər alman faşistlərinə köpək kimi xidmətindən örməğandır. Maraqlıdır, Sovetlər Birliyinin tör-töküntüsü onları almanlara satan Nijdenin tör-töküntüsünə niyə bu dəstəyi verirdi? Məqsəd hər zamankı kimi aydındır... 30 il əvvəlin fonunda o da aydın göründü ki, Azərbaycan 30 ilə yaxın bir dövrdən sonra düşmənə blitzkriq əməliyyatından da güclü həmlələr etdi.

## Kəlbəcərin sahibi gələcəkdi...

1993-cü ildə Kəlbəcər işğal olundu. 70 il əsarətdə yaşayan, sərvətləri mənimsənilən, əlləri bomboş olan bir xalqın əlindən alındı böyükmiqyaslı torpaqları, eləcə də Kəlbəcəri. Bu xalqın igid övladları çıxdı düşmənin qarşısına. Çünki tarixən Azərbaycan oğulları canından keçib, lakin düşmən qarşısından qaçmayıb. Son nəfəsinədək torpaq uğrunda vuruşub. Lakin əliboş, silahsız nə etmək olardı? Blitzkriq əməliyyatının qarşısında ov tüfəngi nə iş görə bilərdi? Heç nə. Ona görə də nəticə belə oldu: Kəlbəcərin 58 mindən artıq əhalisi minilləboyu yaşadığı ata-baba torpağından qovularaq didərgin salındı, 321 nəfər əsir düşdü və ya girov götürüldü, 511 nəfər vəhşicəsinə qətlə yetirildi. 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, 100 min qaramal, 500 min baş qoyun-quzu, 100-lə maşın, texnika və sair talan edildi, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşındı.

Kəlbəcər bu taleyi yaşadı, bəli. Lakin bu o demək deyildi ki, Azərbaycanın bu qədim torpaqları əbədiyyən erməni tapdağı altında qalacaqdı. Bu o demək deyildi ki, evindən-eşiyindən didərgin salınan minlərlə insanın bu taleyi ilə barışılacaqdı. Milyardlarla manatlıq sərvətin dağıdılmasına göz yumulacaqdı.

Gələcəkdi zamanın da sahibi, torpaqların da. Və gəldi də. 30 ildə bu ölkənin sərvətlərinin əsas hissəsi ordu quruculuğuna ayrıldı, 30 il əvvəlki uğursuzluğu uğurla əvəz etmək üçün. Torpaqları yağıdan azad etmək üçün. İnsanların üzərindən qaçqın, köçkün, yurdsuz adını götürmək üçün. Onları yurdlarına geri qaytarmaq, torpaqların ətrini yenidən qoxulatmaq üçün. Ölkəmizin Prezidenti, Ali Baş Komandanımız, hər bir azərbaycanlının qürur yeri cənab İlham Əliyevin həm hərbi, həm də siyasi bacarığı ilə tariximizə 44 səhifə əlavə olundu. Bu 44 səhifəyə 200-300 minilliyə bərabər tarix yazıldı. 10 noyabr Bəyanatı ilə Qarabağ probleminə son qoyuldu. İndi bütün dünya Azərbaycandan danışır, bizdən çox məqamları öyrənməyə çalışır.

## Azərbaycanın gözmuncuğu, Qobustanın əkizi Kəlbəcər

Nəinki Azərbaycanın, bütün Qafqazın gözmuncuğu, Qobustanın əkizidir, Kəlbəcər. Ərazisinə və əhalisinin sayına görə Şərqi Zəngəzurun ən böyük rayonu olan bu yurd yeri təbii sərvətləri, gözəllikləri, dağlıq, qeyri-adi əraziləri, çayları, düzləri ilə bir füsunkarlıq abidəsidir, canlı təbiət muzeyidir. 30 min ildən çox tarixi olan yaşayış məskənləri, məscidləri, VI-VII əsrlərə aid Xudavəng məbəd kompleksi, XIII əsrə məxsus Arzu xatın məbədi, silsilə alban məbədləri, Hacı Əsəd, Hacı Əhməd, Ağ körpüləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbasi nümunələri Kəlbəcərin qədimliyinin təsdiqidir. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb. Kəlbəcərdə ”Türk qəbiristanlığı” adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Kəlbəcər, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcərin səthi dağlıqdır, o, Murovdağ, Şahdağ və digər yüksəklikləri sinəsinə bənd edib, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinə qoyun açıbdır bu yurd yeri. Ən böyük çayımız Tərtər və onun iki böyük qolu, Bazarçayın da mənbəyi, Ulu Öndərin rəhbərliyi ilə tikilən Sərsəng Su Anbarı Kəlbəcərin ərazisindədir.

Rayonun mərkəzi və şimal hissəsində enliyarpaqlı meşələr, meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlarda alp və subalp çəmənlikləri geniş yer tutur. Meşələrinin ümumi sahəsi 32774 hektardır. Qaya keçisi, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, qartal və sair Kəlbəcər faunasının zənginliyidir. Və qızıl yataqları... Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir, məlumdur. Zod qızıl yatağının istismarı eramızın III minilliyinə təsadüf edir. Söyüdlü sahəsində 1970-1980-ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağaralar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə ”Şəhrizər”, yəni qızıl şəhəri adı ilə məşhur olub. Kəlbəcər, bütövlükdə, bu təbii sərvətləri, təbiəti, tarixi ilə Azərbaycanın göz muncuğudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ”Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var”.

## Kəlbəcər bir çox məqamları təsdiqlədi

”Dostu dar gündə tanıyarlar” məsəli dilimizin deyimidir. Lakin düşməni dar ayaqda tanıyarlar deyimini eşitməmişdik. Sual oluna bilər ki, düşmən elə düşməndir də, onun nəyini tanımaq lazımdır ki? Bəli, düşmən düşməndir, lakin hər düşmənin də öz kökünə məxsus xisləti var. Sən demə, belə bir deyim var imiş, lakin biz bunu canlı olaraq görəcəkmişik. Bunu Kəlbəcərin ermənilər tərəfindən boşaldıldığı vaxt gördük. 27 il əvvəl işğal edərək xarabalığa çevirdikləri, bu xarabalıqlar arasında bəzi evlər saxlayıb, kəlbəcərlilərin zəhmətlə, nə kimi arzularla tikdikləri evlərə sığınan ermənilər rayonu tərk edərkən həmin evləri, meşələri, həyətlərdəki ağacları yandırdıqları zaman gördük o deyimi. Bununla da, öz kimliklərini bir daha sübut etdilər. Sübut etdilər ki, düşmən olmaq bir ayrı məsələdir, xislətsiz, xaraktersiz olmaq bir başqa məsələdir. Göstərdilər, biz də gördük. Bizim xalqın nümayəndələri ermənilərin Gəncəyə atdıqları ballistik raket nəticəsində dağılmış evlərindən çıxarkən Azərbaycan bayrağını sinəsinə sıxıb çıxdıqları halda, ermənilərin nələri sinələrinə sıxıb Kəlbəcəri tərk etdiklərini də gördük. Evləri yandırmaqda məqsədləri nə idi bu bədbəxtlərin, görəsən? Düşünürdülər ki, kəlbəcərlilər qayıdıb onların murdar nəfəsləri çökmüş evlərdə yaşayacaqlar? Əsla.

Əvvəllər bədxah qonşularımız azərbaycanlılara qonaq gələndə onların istifadə etdikləri qab-qacağı atarmışlar. Oturduqları döşəkçənin üzünü çıxarıb yuyub, salavatlayıb, sonra yenidən istifadə edərmişlər. İndi o evlərdəmi yaşayacaqdıq? Ermənilərin murdar nəfəsləri çökmüş divarların arasındamı yaşayacaqdı kəlbəcərlilər?

## Kəlbəcərə həyat qayıdır...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev: ”Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır”.

Elə həmin Baş Planla da Kəlbəcər yenidən qurulur. Kəlbəcərdə avtomobil yolları, yeni kəndlər salınıb. Su Elektrik stansiyaları, yarımstansiyalar qurulub. Hərbi hissə, hospital tikilib. Kəlbəcər şəhərində yaşayış məhəlləsi salınır, məktəb, sosial obyektlər tikilir. İstisuya yeni həyat verilir...

Bəli, biz Kəlbəcərə qayıdırıq. Ata-baba yurdumuza, əzəli torpaqlarımıza qayıdırıq. Bu xalq XXI əsrdə yazdığı qəhrəmanlıq dastanı ilə - ”Qarabağ” dastanı ilə o torpaqlara qayıdır. Dövlət-xalq birliyi, lideri ilə, şücaətlə, rəşadətlə, şəhidləri, yaralı qaziləri, 27 illik yurd təşnəli insanları ilə erməni qəsbkarlarından geri aldığı torpaqlara qayıdır. Orada şəhidlərinin qanı axmış torpaqları qoxulamağa, o torpaqlarda azan səsini dinləməyə, öz atababasının məzarını ziyarət etməyə, o torpaqlara yeni həyat verməyə qayıdır.

***Mətanət Məmmədova***

# Musiqi zövqümüz xarakterimizdən xəbər verir?



***Bir çoxumuz gün ərzində musiqilər dinləyir və feyzyab oluruq. Təbii ki, hər birimiz də fərqli musiqi zövqünə sahibik. Əlimizdə olan texnoloji imkanlara nəzər saldıqda, nə qədər çox musiqiyə çıxışımız olduğunu görə bilərsiniz. "Spotify" və "Youtube" kimi proqramlar sayəsində istədiyiniz zaman telefonunuzda milyonlarla mahnıya daxil ola bilərsiniz. Bəs, insanın dinlədiyi musiqilər onların xarakterindən xəbər verir?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Beynəlxalq Fonoqrafik Sənaye Federasiyasının hesablamalarına görə, insanlar həftədə 20,1 saat musiqi dinləməyə vaxt sərf edirlər. Yəni, hər gün demək olar ki, 3 saatı musiqi dinləməyə sərf edilir. Araşdırmalara görə, bəyəndiyiniz musiqi tərzi sizi təsvir edir. Həmçinin, musiqi zövqünüzlə şəxsiyyətiniz arasında əlaqə var. Yəni, dinləməkdən zövq aldığınız musiqi növü şəxsiyyətiniz haqqında təfərrüatları ehtiva edir.

Sevdiyiniz musiqilər daxili aləminizi ifadə edir desək, yanılmarıq. Musiqi min illər boyu əyləncə mənbəyi olub. Hər kəsin dinləməkdən zövq aldığı bir musiqi növü var. Burada seçim çox vaxt birbaşa insanın şəxsiyyəti ilə bağlıdır.

## Rok sevənlər

Rok musiqisi ən qədim və ən populyar musiqilərdən biridir.1940-cı illərdə Rock And Roll ilə yaranan janr bir çox yeni alt janrların





yaranmasına səbəb olmuşdur. Rok musiqisini sevənlər digər janrları sevənlərdən çox fərqli şəxsiyyət xüsusiyyətlərinə malikdirlər. Rok musiqisini sevənlər təbiətcə macəraçı və üsyankardırlar.

## Arabesk sevənlər

Arabesk sevənlərdənsinizsə, hər əhval-ruhiyyədə yaşayan və bunu kənara göstərməyənlərdənsiniz. Sevdiyiniz insanlarla vaxt keçirməkdən zövq alırsınız. Ciddi və sərt görünsəniz də, ürəyiniz, əslində, pambıq kimi yumşaqdır. Arabesk həvəskarları olaraq, hər mənada digər musiqiləri sevənlərdən fərqlisiniz. Macəranı sevməsəniz belə, hadisələri özünküləşdirir və həll yollarını tapırsınız. Həm də tək qalmağı, düşünməyi və hər şeyi təkbaşına etməyi xoşlayırsınız.



## Hip-hop və rep sevənlər

Rep və hip-hop 20-ci əsrin sonlarında fərqli şəkildə ortaya çıxsa da, bu gün bir-birini əvəz edir. Rep və hip-hop musiqisində sözlər bir-biri ilə qafiyələnir və onların sürətli ritmlərini dinləməkdən həzz almağa imkan verir. Rep və hip-hopu sevənlərin ruhu gəncdir və enerjiləri həmişə yüksəkdir. Onlar daim hərəkətdədirlər. Bu cinsi sevən insanlar sosiallaşmaqdan çox xoşbəxtdirlər. Eyni zamanda, rep həvəskarları macəraçıdır.

## Pop sevənlər

Pop musiqi bu gün ən populyar janrdır. Bir çox insanın oxuduğu pop musiqisi 50-ci illərin sonlarında yaranmış və bu günə qədər bir çox dəyişikliklər yaşamışdır. Pop musiqisevərlər əsasən özünə güvənən insanlardır. Kifayət qədər zəhmətkeş olan pop musiqisevərlər tez hirslənirlər. Araşdırmalar göstərir ki, pop musiqisevərlərin yeni şeylər təsəvvür etmək bacarığı o qədər də inkişaf etməyib. Onlar diqqət çəkməyi çox sevir.

## Klassik musiqi sevənlər

Klassik musiqi qədim zamanlarda yaransa da, öz qüvvəsini qoruyub saxlamış və günümüzə qədər gəlib çatmışdır. Klassik musiqiyə qulaq asmağı sevənlər əsasən yüksək standartlara malik inkişaf etmiş insanlardır. Bir az özünə qapanan klassik musiqisevərlər həyatdan zövq alaraq yaşayır. Klassik musiqi dinləyənlərin başqa bir xüsusiyyəti də estrada musiqisini dinləyən insanların darıxdırıcı olduğunu düşünmələridir. Eyni zamanda klassik musiqi dinləyicilərini sevindirmək çox çətindir.

## Muğam sevənlər

Muğam sevərlər adət-ənənələrə önəm verən olurlar. Siz hadisələrə fərqli prizmadan baxırsınız və düşünmədən hərəkət etmirsiniz. Həmçinin, optimist insansınız. Dostlarınız və sevdiklərinizlə vaxt keçirməkdən zövq alırsınız. Dəyər vermək və dəyər görmək sizin üçün çox vacibdir.

Musiqi müəllimi (Fortepiano - konsertmeyster) və şairə Elnarə Nəcəf qızı (Cəlilova): "25 ildir qələmim yazır - iki kitab və mahnılar müəllifiyəm. Musiqi mənim üçün həyatımın bir parçasıdır. Hətta deyərdim ki, musiqi mənim dünyamdır. Uşaq yaşlarımdan bu günə qədər ruhum musiqi ilə qidalanıb. Fortepiano təhsili aldığım zamanlarda xarici əsərlərdən çox Azərbaycan musiqi havalarını ifa etməyi çox sevirdim. Zamanla bu məndə musiqiyə daha da çox sevgi yaratdı. Əslinə baxsaq, həyatda hər bir şey avazla, musiqi ilə bağlıdır. Adi bir əşyaların toxunuşu belə musiqi yaradır. Analarımızın laylası, avazı.. Quşların cəh-cəhi belə musiqi kimi bizə gəlib çatır. Nə gözəl oxuyur - deyirik.

Musiqilər fərqlidir insanlar kimi. Janrlar fərqlidir.. Kimi lirikanı sevir, kimi pop, kimi meyxana və s. sadaladıqca bölünür. Mən özüm lirikanı sevdiyim üçün sözləri mənə - Elnarə Nəcəfqızına aid və bəstə və ifası Arif Səlimovun olan "Nədən" mahnımızı lirika üzərində ərsəyə gətirib çıxarmışıq və bu gün də o mahnı dillər əzbəri olub, qəlblərdə yaşayır.

Deməzdim musiqi insanın xarakterinin göstəricisidir. Çünki elə vaxt olar ki, hansısa qəmli vaxtına düşər insan əsla qulaq asmadığı musiqini təsadüf dinlədiyi zaman, həmin musiqi sonra onda bir xatirə yaradar o gündən əbədi. Mən əsasən bəstəkar mahnılarını sevirəm və hər zaman da öz övladlarıma, sevdiklərimə belə musiqiləri böyük həvəslə dinlətdirib, öz keçmişimizi gələcək nəsillərə tanış etdirmişəm. Onlara Tofiq Quliyevi, Oqtay Zülfüqarovu, Emin Sabitoğlunu, müğənnilərdən Şövkət Ələkbərovanı, Rəşid Behbudovu və digər bizim əvəzsiz sənətkarlarımızı tanıtdırmışam. Hazırda sevdiyim az sayda müğənnilər var ki, onları dinləyirəm. Çox istərdim ki, bundan sonra da gözəl musiqilər yazılsın. İnsanlar musiqi dinlədikdə ruhları dincəlsin və bir anlıq da olsa, fikirlərində xoş düşüncələr yarada bilsinlər".

Bir müddət sonra insanlar həmişə dinlədikləri üslubdan qoparaq yeni musiqi janrları və yeni mahnılar kəşf etmək istəyə bilərlər. Bir sıra mənbələr göstərir ki, yaşlandıqca yeni musiqi kəşf etmək istəyi azalır.

ARAŞDIRMA

Ardı Səh. 11

# Musiqi zövqümüz xarakterimizdən xəbər verir?

Əvvəli Səh. 10

## Yeni musiqi kəşf etmək arzusu

Hər bir musiqinin özünəməxsus ritmi və harmoniyası var. Yeni musiqi dinləyərkən beynimiz bu harmoniyanı həll etmək və öyrəşmək istəyir. 11 yaşa qədər uşaqlar ümumiyyətlə yeni musiqi dinləməkdən həzz alır. Yeniyetməliyin ilkin mərhələlərində isə musiqi zövqü tədricən formalaşmağa başlayır. Qeyd edək ki, bir çox hallarda yeni musiqi kəşf etmək istəyimiz yaşlandıqca azalmağa



davam edir.

2013-cü ildə 250.000-dən çox iştirakçı üzərində aparılan araşdırma insanların musiqi zövqünün necə dəyişməsi ilə bağlı mühüm məlumatlar verir. Araşdırmanın nəticələrinə görə, erkən gənclikdə musiqiyə verdiyimiz əhəmiyyət zaman keçdikcə azalır. Yeniyetməlik dövründə oyaq olduğumuz saatlarımızın 20%-ni musiqi dinlədiyimiz halda, yetkinlik dövründə bu, 13%-ə qədər azalır. Həmçinin, bu azalmaya iş həyatının da buna təsiri ola bilər.

## Prioritetlər dəyişir

Musiqi və davranış psixologiyası sahəsində aparılan araşdırmalar musiqi zövqünün və musiqi dinləmə vaxtının necə və niyə dəyişməsi ilə bağlı müxtəlif nəzəriyyələr irəli sürür. Bunlardan biri də psixososial yetkinləşmədir. İnsan beyni yetkinləşdikcə həvəsi azalır.

Uşağın şəxsiyyəti və xarakteri böyüklərdən daha çox dəyişkəndir. Yetkinlər daha möhkəm, sabit şəxsiyyətlərə malikdirlər. Uşaqların beyni dəyişməyə çox açıq olduğundan onlar yeni musiqi növlərinə daha açıq olurlar. Erkən yeniyetməlik dövründə musiqi bir növ şəxsiyyət rolunu oynayır. Bu dövrlərdə musiqi zövqü də sosial katalizator rolunu oynaya bilər. Yetkinlərdə hər şey daha sabitdir. Orada köklü şəxsiyyət, musiqi zövqü, sosial mühit var. Buna görə də, yeni musiqi kəşf etmək üçün çox səbəb olmaya bilər.

## Musiqiyə qulaq asmaq üçün vaxt daralır

Yeni musiqi kəşf etmək istəyinin azalması ilə bağlı başqa bir fikir də odur ki, insanların yaşla prioritetləri dəyişir və vaxtları az olur. Böyüklərin iş həyatı mühüm yer tutduğundan, onların yeni musiqi kəşf etmək üçün kifayət qədər vaxtı olmaya bilər. Məhdud vaxtda insanlar diqqətlərini bəyəndikləri musiqi növlərini dinləməyə cəmləyirlər və yeni musiqilərə o qədər də yer qalmır.

Musiqi zövqümüzün necə formalaşması ilə bağlı çoxlu fikirlər olsa da, tədqiqatçıların həmfikir olduğu bəzi məsələlər var. Birincisi, musiqi zövqümüz erkən yeniyetməlik dövründə formalaşır və əsasən belə qalır. Yeniyetmələr nə dinləmək istədiklərini çox yaxşı bilirlər və yeni musiqi növlərinə açıqdırlar. Onlar müxtəlif musiqi növlərinə qulaq asırlar.

İnsanlar idman kimi fəaliyyətlər üçün motivasiya mənbəyi kimi musiqidən də istifadə edə bilərlər. Zamanla musiqi sadəcə musiqi olmaqdan çıxar və beynimizdə ciddi yer tutan, xatirələrimizi müşayiət edən komponentə çevrilir.

Musiqi zövqü dəyişirmi?

Neyrologiya sahəsində aparılan araşdırmalar göstərir ki, musiqi zövqümüz dəyişə bilər. Məsələn, rəqsi sevirsinizsə, zaman keçdikcə bu rəqsi müşayiət edən musiqini də sevə bilərsiniz. Araşdırmalar göstərir ki, yeni doğulmuş körpələr hələ ana bətnində olarkən dinlədikləri musiqiyə fərqli reaksiya verir və onlara rəğbət bəsləyirlər. Musiqidə "zövq" dediyimiz şey əslində beynimiz musiqi dinlədiyi zaman həzz hissi yaradan dofamin kimi molekulların sərbəst buraxılmasıdır. Musiqini dinlədiyiniz zaman ondan həzz alırsınız, çünki beyində dopamin ifraz olunur. Beyninizdə kifayət qədər dopamin olmadığı üçün B musiqisindən həzz almırsınız.

Musiqi dinləmək üçün müxtəlif yolları sınayın:

-Yalnız telefonunuzda və ya kompüterinizdə musiqi dinləməyin.

- Konsertlərə gedin, canlı musiqi tədbirlərində iştirak edin, musiqini sosial həyatınıza daxil edin.
- Musiqi dinləməyi vərdiş edin.
- Dinlədiyiniz musiqiyə maraq göstərin.
- Dinlədiyiniz musiqidə hansı alətlərdən istifadə olunduğuna diqqət yetirin.
- Musiqinin arxasında hər hansı bir hekayənin olub olmadığını öyrənin.
- Sizə musiqi tövsiyələri verə biləcək dostlar tapın.
- Sevdiyiniz musiqiyə qulaq asmağı dayandırmayın, aralarında pleylistinizə yeni musiqi əlavə edin.

*Ayşən əli*



## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 24-də YAP Nərimanov rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib. Sonda xatirə fotosu çəkdirilib.



## "Nar" sosial məsuliyyətli biznes modelini ADA Universitetində təqdim edib

Həyata keçirdiyi davamlı və faydalı layihələri ilə cəmiyyətə töfhə verən "Nar" zəngin korporativ sosial məsuliyyət (KSM) təcrübəsini ADA Universitetinin tələbələri ilə bölüşdü. Təqdimat "Nar"ın KSM strategiyasının müəllifi, Korporativ Ünsiyyət departamentinin direktoru Əziz Axundov tərəfindən keçirildi. Təqdimatda bizneslərin sosial məsuliyyəti mənimsəməsi, KSM strategiyasının yaradılması, müsbət fərq yaradan sosial layihələrin icrası və onların davamlılığının təmin edilməsinin əhəmiyyəti vurğulanıb. Uğurlu model olaraq, "Nar"ın KSM strategiyasının əsas istiqamətləri - fiziki məhdudiyyətli şəxslərə dəstək, təhsilə və maarif və milli ənənələrin yaşadılması yönündə həyata keçirilən layihələr haqqında geniş məlumat verilib.

Xatırladaq ki, bir neçə ay öncə "Nar"ın "Azərbaycan işarə dilində ilk elektron lüğəti - jestdili.az" sosial layihəsidünya üzrə ilin ən yaxşı KSM layihəsi kimi mükafata layiq görülmüşdü. Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən "Qızıl Dünya Mükafatı"na layiq görülən "Nar" bənzər mükafata 2019-cu ildə fiziki məhdudiyyətli şəxslər üçün keçirdiyi "Təlim məktəbi" sosial layihəsi ilə layiq görülmüşdü. Cəmiyyətə faydalı və eləcə də, qlobal miqyasda tanınan sosial layihələri həyata keçirən "Nar"ın məqsədi həm də uğurlu KSM təcrübəsini gələcəyin biznes idarəedicilərinə tanıtmaq, onlarısosial məsuliyyətli biznes strategiyası qurmağa təşviq etməkdir. Korporativ sosial məsuliyyət sahəsində gerçəkləşdirilən layihələrlə nar.az/projects səhifəsindən ətraflı məlumat əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Heydər Əliyev - Azərbaycanın gənclər siyasətinin banisi

*Anastasiya Lavrina, YAP Gənclər Birliyinin üzvü*

Ümummilli lider Heydər Əliyev istənilən şəraitdə, hər zaman Azərbaycanın və xalqının gələcəyini düşünürdü. O, gənclərlə işin formalaşdırılmasının, bu istiqamətdə proqramların hazırlanmasının, gənc kadrların dəstəklənməsi istiqamətində islahatların aparılmasının nə qədər vacib olduğunu mükəmməl dərk edirdi. Dövlətin uğurunu və rəqabətqabiliyyətliliyini formalaşdıran əsas şərt gənc nəslin keyfiyyətidir, eyni zamanda, gənclər cəmiyyətin ən həssas təbəqəsidir və məhz onlar dəstəyə, təşviqə, ictimai birliklərin yaradılmasına, sağlam həyat mühiti və sosial təminatlara ehtiyyac duyurlar. Heydər Əliyev bütün ölkə üçün çox çətin bir zamanda Azərbaycana qayıtdı. Ölkənin müstəqil dövlətçiliyinin dirçəldiyi, milli şüurun oyandığı və bununla bərabər Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davam etdiyi bir dövrdə, Heydər Əliyev gənlər siyasətinin formalaşdırılması və inkişafı ilə bağlı doğru qərarlar qəbul etdi.

Gənc nəslə qayğı daim gənclərə böyük məhəbbətlə yanaşan ulu öndərin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması ilə gənclər siyasəti fəal şəkildə həyata keçirilməyə başlandı. 1996-cı ilin fevralında Prezident Heydər Əliyevin xüsusi Sərəncamı ilə Müstəqil Azərbaycan Gənclərinin I Forumu keçirildi və orada bütün



kateqoriyadan olan gəncləri təmsil edən iki mindən çox gənc iştirak etdi. Heydər Əliyev başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri forumda fəal iştirak etmişlər. Tədbirdə gənclərin qarşılaşdıqları problemlərin öyrənilməsi, gənc iştirakçıların təklif və istəklərinin müzakirəsi bu sahənin hərtərəfli öyrənilməsinə və işə başlamasına kömək etdi.

1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edilmişdir. Heydər Əliyev çox gözəl dərk edirdi ki, gənc nəslin Vətənə məhəbbət ruhunda düzgün tərbiyəsi, onların mənəvi tələbatlarının ödənilməsi, sosial-iqtisadi problemlərinin həlli dövlətin uğurlu inkişafının açarıdır. Ulu öndərin gənclərlə çoxsaylı görüşləri, dəyərli tövsiyələri gənclərin milli və dövlət maraqları ətrafında birləşməsinə xidmət etmişdir.

2020-ci ilin payızında 44 günlük Vətən Müharibəsi zamanı azərbaycanlı gənclərin davranışı buna layiqli nümunə oldu. 90-cı illərin sonlarında, yəni Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsindən sonra dünyaya göz açan gənc nəsil könüllü olaraq müharibədə iştirak etməyə can atırdı. Ali Baş Komandan Prezident İlham Əliyevin 2022-ci ildə Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında çıxışı zamanı qeyd etdiyi kimi: "Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər". Azərbaycanlı gənclərin birliyi həm ölkədə, həm də bütün dünyada hiss olunurdu. Etnik və dinindən asılı olmayaraq hamıda vətənpərvərlik hissi çox yüksək idi. Ali Baş Komandanın rəhbərliyi altında ordu ilə xalqın birliyi böyük Qələbənin əldə olunmasında həlledici məqamlardan birinə çevrildi.

Gənclərdə vətənpərvərlik hisslərinin yüksək olması indi, gənclərin öz ata-baba yurdlarınaqayıtmağa can atdıqları zaman da görünür. Uzun illər erməni işğalında olan torpaqlarımızişğaldan azad etdildikdən sonra həyat üçün zəruri olan bütün infrastruktur fəal şəkildə bərpa edilməyə və praktiki olaraq yenidən qurulmağa başladı. Artıq üç ilə yaxındır ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı üzrə proqram və layihələr davam edir. Prezident İlham Əliyevin "bir nömrəli vəzifə" adlandırdığı "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlər yenidən salınmış kənd və şəhərlərə qayıdırlar. Artıq qayıdanlar və ya qayıtmağı planlaşdıranlar arasında qəlbində səmimi xoşbəxtlik və sevinc olan gənclər də az deyil.

Multikulturalizm də, əsası ümummilli lider tərəfindən qoyulmuş gənclər siyasətinin tərkib hissəsidir. Heydər Əliyev Azərbaycan ərazisində yaşayan etnik azlıqların mədəni və dini dəyərlərinin qorunmasını, insan hüquq və azadlıqları kontekstində demokratiyanın mühüm prinsipi hesab edirdi. Multikulturalizm Azərbaycan gənclərinin gündəlik həyatının bir hissəsinə çevrilmişdir.

Ümummilli liderin gənclər və multikulturalizmlə bağlı ideyaları Prezident İlham Əliyevin siyasətində də davam etdirilmiş və bu gün respublikamızın ictimai-siyasi həyatında gənclərin fəal iştirakını təmin etməklə yüksək səviyyədə həyata keçirilir. Gənc nəslin öz ölkəsinin əsl vətəndaşı, vətənpərvər kimi formalaşması üçün əlverişli şərait yaradılır. Azərbaycanda gənclər yüksək vəzifələr tutur, müxtəlif beynəlxalq konfranslarda fəal iştirak edir, vətənin mənafeyini yüksək tribunalardan müdafiə edirlər. Bunu Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi qiymətləndirmək olar. Mükəmməl informasiya bilikləri ilə gənclər Cənubi Qafqaz regionundakı reallıqlar və Azərbaycanın qlobal miqyasda artan rolu haqqında dünyaya danışırlar.

Şübhəsiz ki, Ulu Öndərin siyasi fəaliyyəti ölkənin inkişafını, dövlətçiliyin möhkəmlənməsini, xalqın rifah halını təmin edib. Bu gün gənclərimiz memarı dahi ümummilli lider Heydər Əliyevin olduğu qüdrətli, güclü və müstəqil Azərbaycanın vətəndaşları olmaqdan qürur duyurlar.

ŞƏRH

# Ali məktəblərdə korrupsiyanın qarşısını almaq üçün NƏ ETMƏLİ?

**Bu gün ali məktəblərdəki başlıca problemlərdən biri də korrupsiya faktlarıdır. Bəs Azərbaycan universitetlərindəki korrupsiya hallarını aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır?**





Mövzu ilə bağlı SİA-ya danışan millət vəkili Aydın Mirzəzadə bildirib ki, əvvəlcə tələbə və onun ailəsi yüksək bilik almaqda maraqlı olmalıdırlar: "Onlar qiyməti qeyri-qanuni yolla yox, ancaq bilik əsasında almağa çalışmalıdırlar. Savadsız mütəxəssis bu gün heç yerdə lazım deyil. Biliklə deyil, digər yollarla alınan diplom möhürlü kağızdan başqa bir şey deyil. Biliksiz mütəxəssisi heç bir şirkət, heç bir iş adamı işə götürmək istəməyəcək. Dövlət qulluğuna isə aşağı biliklə heç cürə qəbul edilə bilməyəcək. Birinci şərt tələbənin özünün bilik almaqda maraqlı olmasıdır".

**Millət vəkilinin sözlərinə görə, universitetdaxili proseslərə ictimai nəzarət güclü olmalıdır:** "İctimaiyyət bütün ali və orta ixtisas məktəblərində hansı proseslər getdiyini, uğurlar qazandığını, yeniliklər və problemlər olduğu barəsində məlumatlı olmalıdır. Bu gün biz bunu mətbuatdan, sosial şəbəkələrdən görürük. Neqativ hallarla yanaşı eyni zamanda təhsilimizdə olan uğurlar da göz qabağındadır. Gənclərimizin bilik almağa, daha savadlı olmağa çalışdıqlarını qabarıq şəkildə görürük. Bir dəfə korrupsiyada tutulan insan üçün tədris ocaqlarının qapısı bağlanmalı, həmin adam qara siyahıya salınmalı və bir daha auditoriyaya girmək hüququndan məhrum edilməlidir".

**Təhsil eksperti Elçin Əfəndinin fikrincə, korrupsiya məsələsi istər dövlət, istərsə də özəl universitetlərdə hər zaman olub və hələ də davam edir:** "Bunun həlli yolu ondan ibarətdir ki, vətəndaş özü ilk növbədə korrupsiyanı verməyə cəhd etməməlidir. Korrupsiyanı verməsən tələb edən də olmaz. İstisna hallarda tələb edilərsə vətəndaş qorxaq olmamalı, mübarizə aparmaq üçün aidiyyəti quruma müraciət etməlidir. Universitetlərin özünün də bu məsələ diqqətində olmalıdır. Belə hallara yol verən şəxs varsa haqqında qanunvericiliyin tələbinə uyğun tədbir görülməlidir ki, digərlərinə də örnək olsun".

***Rəşid Qarayev***

RƏYLƏR

# "Azərbaycan olmadan Avropada sülh və təhlükəsizlik ola bilməz"

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa və Şimali Amerika üzrə dövlət naziri Leo Dokertini qəbul edib. Dövlət başçısı qəbul zamanı qeyd edib ki, ikitərəfli münasibətlərimiz dinamik inkişaf tempinə malikdir və bu səfər çərçivəsində münasibətlərin perspektivi, regional gündəlik ətrafında fikir mübadiləsi ediləcək. Leo Dokertin isə öz növbəsində bildirib ki, ölkəsi regionda sülh və sabitliyin təmin olunması işinə hər zaman töhfə vermək niyyətindədir və Azərbaycanla uzun illərdir mühüm siyasi, iqtisadi, ticarət, enerji əlaqələrinin mövcudluğu ilə fəxr edirlər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elman Nəsirov deyib.



Onun sözlərinə görə, Böyük Britaniya bu əlaqələrin daha da inkişaf etdirilməsində maraqlıdır: "Leo Dokertin qeyd edib ki, Azərbaycan yalnız Avropanın mühüm enerji təchizatçısı deyil, həm də Cənubi Qafqazın vacib, məsuliyyətli ölkəsidir və Azərbaycansız Avropada sülh və təhlükəsizlik olmazdı. Bu, çox yüksək qiymətdir. Avropanın bəzi siyasi dairələrində, xüsusilə də parlamentində Azərbaycana qarşı qərəzli mövqe bəllidir. Bu, Böyük Britaniya nazirinin həm də öz parlamentarilərinə bir mesajı kimi qiymətləndirilməlidir ki, əgər Avropa regionunda sülh və təhlükəsizliyin möhkəmlənməsində maraqlıyqsa, Azərbaycan faktoru həmişə nəzərə alınmalıdır. Kimlər anti-Azərbaycan siyasətinə təkan verirsə, onlar oturduğu ağacın budağını kəsmiş sayılırlar".

Deputat bildirib ki, Azərbaycan Prezidenti görüşdə BP şirkətinin uzun illər öncə ölkəmizdə fəaliyyətə başlamasını və iqtisadi inkişafa verdiyi töhfələri vurğulayıb: "Ölkə rəhbəri qeyd edib ki, hazırda Azərbaycan-BP əməkdaşlığı bərpa olunan enerji sahəsi ilə bağlı yeni mərhələyə qədəm qoyulub. Bunun özü də region üçün gözəl bir nümunədir. Danışıqlar prosesində Azərbaycan Prezidenti bildirib ki, antiterror tədbirləri nəticəsində dövlətimiz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Həmçinin, Prezident britaniyalı nazirin diqqətinə çatdırıb ki, Azərbaycan sülh müqaviləsi imzalamaqda maraqlıdır, regionun sülh gündəliyini dəstəkləyir. Azərbaycan müharibəni udub, indi də sülhü udmaq istəyir. O sülh ki, burada uduzan tərəf olmayacaq".

***Ləman Sərraf***

MÜNASİBƏT

ANALİTİK+AKTUAL




# USAİD korrupsiya ilə mübarizəni, korrupsiyanı təşviq etməklə aparıb

"Korrupsiya ABŞ-ın milli təhlükəsizliyi və ümumilikdə demokratiya üçün təhlükə yaradır, korrupsiya ilə mübarizə bizim hökumətin əsas prioriteti olacaq". Bu sözləri Co Bayden saxta seçkilər vasitəsi ilə hakimiyyətə gəldikdən sonra "Korrupsiya ilə mübarizə üzrə Memorandumu" imzalayaraq demişdi. Görünür, özü kimi zəif (istər fiziki, istər anlaqlılıq cəhətdən) bir siyasətçinin hakimiyyətə gətirilməsində korrupsiyanın nə dərəcədə böyük rol oynadığını və nə dərəcədə yüksək səviyyədə olduğunu başa düşdüyü üçün onunla mübarizəni prioritet elan etdi. Bəlkə də Bayden fikirləşir ki, korrupsiya ilə mübarizəni əsas vəzifə elan edərkən, o özünü daha çox düşünüb, yəni korrupsiya vasitəsi ilə onu kimsə hakimiyyətdən uzaqlaşdıra bilməsin.

Onu da qeyd edək ki, memorandum korrupsiya ilə mübarizə üzrə bir çox sahələri əhatə edir. Məsələn, memorandumda deyilir ki, ABŞ-ın dövlət büdcəsindən aparılan bütün ölkədaxili və ölkəxarici qanunsuz maliyyələşməyə son qoyulmalıdır. Beləliklə, ABŞ özü xaricdə çoxsaylı qanunsuz maliyyələşmələrin baş verdiyini etiraf edir. Lakin ABŞ mübarizəni də özünəməxsus qaydada aparır- yeni korrupsiya sxemləri tətbiq etməklə...

Xarici maliyyələşmənin əsas korrupsiya mexanizmi isə şübhəsiz ki, USAİD-dir və bu təşkilat dəfələrlə müxtəlif növ qalmaqalların mərkəzində olaraq ifşa olunub.

"Bu, elə əsl korrupsiyadır və biz bunu maliyyəşdiririk?". Bu sualı USAİD-in Əfqanistandakı fəaliyyətinə dair hesabatını dinləyən konqresmen Ceyson Çafits (Jason E. Chaffetz) USAİD-in nümayəndəsinə verib. Bu prosesi geniş şəkildə məşhur FOX-NYUS işıqlandırmışdı.

USAİD-in gerçək məqsədləri haqqında nüfuzlu "Los Angesel Times" geniş məqalə yazaraq bu qurumu "dövlət çevrilişləri mühəndisi" adlandırıb.

14 mart 2017-ci ildə əvvəllər prezidentliyə namizəd olmuş Senator Ted Kruz da daxil olan bir qrup ABŞ senatoru o vaxt dövlət katibi olan Reks Tillersona müraciət edərək Amerika vergi ödəyicilərin USAİD-ə ayrılan vəsaitlərin Corc Sorosa məxsus təşkilatlar vasitəsi ilə digər ölkələrdə siyasi çevrilişlər üçün istifadə edilməsi məsələsini araşdırmağı tələb etmişdi və bu rəsmi müraciətdə Corc Sorosun özünün də etirafına görə əsas "vuran əli" olan və hazırda Azərbaycanda qanunsuz fəaliyyət göstərən "Şərq-Qərb İdarəetmə İnstitutunun" və onun qalmaqallı nümayəndəsi Delina Fico-nun adı xüsusi vurğulanmışdı.



2006-cı ilin iyun ayında Harvard Universitetinin professorları İlyana Kuzmenko və Erik Verker "Təhlükəsizlik Şurasında yerin qiyməti neçəyədir? BMT-də xarici yardım və rüşvət" (How Much Is a Seat on the Security Council Worth? Foreign Aid and Bribery at the United Nations) adlı məqalədə ABŞ-ın USAİD və digər yardım proqramlarını birbaşa korrupsiya və rüşvət vasitəsi kimi istifadə edərək BMT-nin TŞ-na rotasiya əsasında seçilən qeyri-daimi üzv ölkələrin ABŞ maraqlarına xidmət etmələrinə nail olduqlarını sübut etmişdilər.

Yuxarıda qeyd etdiklərimiz faktlar isə hamısı deyil, sadəcə, bir neçəsidir, əslində isə, artıq USAİD-in əsas məramı heç kim üçün sirr deyil. Axı ABŞ-ın "yumsaq qüvvəsi" olan USAİD məhz o məqsədlə yaradılmışdı ki, ABŞ birbaşa hərbi yolla daxil ola bilməyən ölkələrə məhz "yardım" göstərmək məqsədi ilə daxil olaraq dolların gücü hesabına ABŞ-ı qane etmədiyi hökumətləri devirsinlər.

Əslində, demokratlar heç bunu gizlətmirlər də. Məsələn, ABŞ-ın dövlət katibi və Sorosun yetişdirməsi olan Blinken, hələ ilk çıxışında bəyan etmişdi, SİTAT: "...Biz artıq demokratiyanı bahalı hərbi əməliyyatlar vasitəsilə yürütməyəcəyik...

Biz demokratiyanı partnyorlarını mükafatlandırmaqla yürüdəcəyik..."

Əlbəttə, bunu artıq bütün ölkələr bilir və bir çoxu bu səbəbdən USAİD-i öz ərazilərindən, sözün əsl mənasında, qovub. Şübhəsiz ki, USAİD-i qovanlar əsasən güclü dövlətlərdir və belə dövlətlərin dollara satılmayan məmurlarıdır.

USAİD-in Azərbaycandakı fəaliyyətlərinə dair də çoxlu suallar həmişə olub. Burada bir neçə məqamı önə çəkmək olaq:

Ən əsas və başlıcası odur ki, hər yerdə şəffaflıqdan danışan USAİD-in ölkəmizdəki fəaliyyəti tamamilə qeyri-şəffaf olub. USAİD-in paylaşdığı məlumatlar sırf təbliğat xarakterli məlumatlardır və necə deyərlər, "gözdən pərdə asmaqdan" ötrüdür. "Pərdənin" arxasında isə nələr baş verdiyini, sadəcə, ehtimal etmək olar, amma artıq bu sahədə də bəzi faktlar üzə çıxıb.

Qeyri-şəffaflığı göstərən fakt odur ki, USAİD-in rəsmi səhifəsində belə onun Azərbaycandakı fəaliyyətlərinə dair hər hansı bir rəsmi hesabat yoxdur. Onun "paylaşdığı" qrantları icra edən heç bir təşkilatın hesabatını görmək olmur. Bu, özü-özlüyündə böyük göstəricidir. Əgər vəsaitlər dürüst və elan olunan məqsədlərə istifadə olunsaydı, belə hesabatların yerləşdirilməsində heç bir problem olmazdı.

USAİD-lə qrantalanlar haqqında hər hansı bir məlumat tapmaq qeyri-mümkündür. Bu da qrantyeyənlərin qeyri-şəffaf yolla seçilməsinə dəlalət edir. Əsas sual da odur ki, necə olur ki, illər boyu USAİD-ən qrantları elə eyni təşkilatlar alır? Ölkədə bu qədər yeni qurum və təşkilatlar olduğu halda. Bütün bunlar korrupsiya mexanizmləri deyilsə, onda nədir? Bəzən isə qrantlar, ümumiyyətlə,




heç kim tanımadığı "gecəqondu" təşkilatlara verilir ki, bu isə "klassik" korrupsiya sxemlərindən biridir.

Və nəhayət, USAİD-in Azərbaycanda qeyri-şəffaf fəaliyyətlərinə dair konkret faktlar əldə etmişik. Əldə etdiyimiz faktlara əsasən, yuxarıda adını qeyd etdiyimiz və dəfələrlə yazılarımızda ifşa etdiyimiz Sorosun "Şərq-Qərb İdarəetmə İnstitutu" adlı təşkilatı USAİD-in Azərbaycandakı ofisi ilə öncədən əlbir olmaqla yeni layihələri birlikdə hazırlayır və sonra həmin layihələrin qalibi olur.

USAİD-in rəhbərliyinə gətirilən ermənipərəst Samanta Pouerə isə məsləhət verərdik ki, gedib qondarma erməni soyqırımı "qurbanlarının" İrəvandakı "abidəsi" qarşısında baş əyərək artistcəsinə ağlayıb-sızlaması yerinə, gedib fikirləşsin ki, onun rəhbərlik etdiyi təşkilat hansı rüsvayçılıqlarla məşğul olur.

Bəli, Samanta Pauer, əgər ədalət axtarırsa, onu birinci növbədə özündə və rəhbərlik etdiyin qurumda axtar, tarixi isə burax tarixçilərin ixtiyarına!

***Afət Tahirqızı***

## Onlayn alış-veriş, yoxsa ənənəvi alış-veriş:

# Modern dövrün tərəqqisi

***Günümüzdə texnologiyaların sürətli inkişafı, onlayn alış-verişi gündəlik həyatımızın bir hissəsi halına gətirmişdir. Bu ənənəvi alış-veriş tərzində dəyişiklik yaratmış və insanların məhsulları əldə etmək üçün yolları dəyişdirmişdir. SİA olaraq vətəndaşların sosial onlayn və ənənəvi alış-veriş haqqındakı fikirlərini öyrəndik.***

**Şəhər sakini Türkanə Həsənova düşünür ki, onlayn alış-veriş daha yaxşıdır:** "Düşünürəm ki, onlayn alış-veriş etməklə həyatımızdakı digər məşğuliyyətlərə yer ayıra bilirik. Digər tərəfdən, bu vasitə ilə daha yaxşı alış-veriş edir, həm də əlverişli və daha keyfiyyətli məhsullar əldə edə bilirik".

**Şəhər sakini Məfkurə Mirzəli də onlayn alış-verişi daha üstün tutur:** "Onlayn alış-verişin daha üstün cəhətlərinin olduğunu düşünürəm. Tələbə olduğumuza görə bizim üçün ən dəyərli faktorlardan biri vaxtdır. Onlayn alış-veriş ilə vaxtımıza qənaət etmiş oluruq və dərslərimizə daha çox vaxt ayırmış oluruq".

**Şəhər sakini Əlikram Qürbətovun fikrincə isə, onlayn alış-veriş daha münasibdir:** "Bəzən ənənəvi alış-verişdən istifadə etdiyim hallar olur, amma daha çox Türkiyənin "Trendyol" şirkətindən istifadə edərək onlayn alış-verişdən yararlanıram. Çünki bu platformada qiymətlər daha münasibdir".

**Şəhər sakini Afa Cabbarova onlayn alış-verişdən daha çox istifadə etdiyini bildirib:** "İnternetdən alış-veriş etmək mənim üçün yorulmamaq deməkdir. Qarış-qarış mağaza gəzməyimizə ehtiyac qalmır. Fikrimcə, onlayn şəkildə alış-verişin ən müsbət cəhətlərindən biri budur".

**Şəhər sakini Leyla Muradzadə isə ənənəyə sadiq qalaraq ənənəvi alış-verişdən istifadə etməyi daha üstün tutduğunu deyir:** "Bəzən onlayn alış-verişdə səhvlərə yol verilə bilir. Sifariş etdiyimiz məhsulların ölçülərindəki fərqlər buna örnək verilə bilər. Məhz buna görə onlayn alış-verişin daha etibarlı olduğunu düşünmürəm".

**Şəhər sakini Rəşid Qarayev onlayn alış-verişdən daha çox istifadə etdiyini bildirib:** "Mən daha çox onlayn alış-verişə üstünlük verirəm. Çünki evdən ayrılmadan istədiyimiz məhsullar ayağımıza gəlir. Düzdür, bəzi mənfi hallar olsa da, müsbət cəhətləri daha çoxdur. Amma onlayn alış-veriş zamanı fırıldaqçılara qarşı diqqətli olmaqda fayda var".



***Özləm Quliyeva***

# Bəşəriyyət erməni vəhşiliyindən qorunmağın yollarını araşdırır

Birmənalı şəkildə sübuta yetirilib ki, erməni toplumu bəşəriyyət üçün təhlükə mənbəyidir. Ermənilər terrorçu olmaqla yanaşı, həm də reigonda sülhün, təhlükəsizliyin təmin olunmasına mane olan anormal toplumdur. İstəsən də bu toplumu yer üzündən silmək mümkün deyil. Çünki həyasızlığı, yaltaqlığı, özlərini yazıq qismində göstərməyə çalışmaları onların soyunun, kökünün kəsilməsinə imkan vermir. Hazırkı sivil, demokratik dünya düzəninin yaranması erməni toplumunun əl-qolunu bir qədər də geniş açmasına imkan verib. Bəlkə də, orta əsrlər olsa idi, erməni vəhşi toplumun varlığına son qoymaq olardı. Tarixdə belə faktlar kifayət qədərdir. Yəni işğallar nəticəsində o dövrdə mövcud olmuş neçə-neçə millət mövcudluğunu tamamilə itirib. Sadəcə, erməni toplumu müxtəlif hiyləgər vasitələrdən istifadə etdiyindən bu günümüzə qədər gəlib çata bilmişlər. Böyük fateh Teymurləngin bir fikrini qeyd etmək yerinə düşərdi: ”Ermənilərin kötüyünü kəsmədiyimə görə, gələcək nəsillər yəqin ki, məni qınayacaqlar”. Bəli, biz bugünkü nəsil Teymurləngi, Şah İsmayıl Xətaini, Nadir Şahı və digər sərkərdələri qınayırıq, erməni toplumunun kötüyünü vaxtında kəssəydilər, bu gün bizlər onların terrorunun qurbanı olub əziyyət çəkməzdik. Etinasızlıq göstərilməsindən bəhrələnən ermənilər böyük güclərin hərbi, siyasi dəstəyinə arxalanmaqla Cənubi Qafqazda yerləşdilər. Möhkəmləndikdən sonra isə azərbaycanlılara qarşı qətliamlar həyata keçirdilər, evləri dağıtdılar, şəhərləri, kəndləri viran etdilər. Nəticədə son iki yüz il ərzində 2 milyon azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu, İrəvanı özününküləşdirdilər, Qafanı, Gorusu, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər.





Erməni toplumu bəzi güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürülməsi prosesi on doqquzuncu əsrin sonu iyirminci əsrin əvvəllərində daha sürətlə aparılmışdır. Nəticədə XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur.

## 1905-ci ilin qırğınları tarixə ”Bakı şəhərində qanlı qətliam” kimi düşmüşdür

Erməni daşnak millətçilərinin ”böyük Ermənistan” ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnak quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Erməni quldur dəstələri yalnız Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C. Libardyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 ”siyasi qətl” törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardiyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: ”Bu qısa üç illik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı bir qeyri-erməni mənşəli şəxsdə öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təşviq etmək məcburiyyətində qoymaq”. 1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir. 1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə ”Bakı şəhərində qanlı qətliam” kimi düşmüşdür. ”Daşnaksutyun” beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: ”Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırırlar. Böyük humanist ideallara xidmət edən Azərbaycan Ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır”.

## Xaricdən gətirilən erməni quldurları qırğınlarda fəal iştirak etmişlər

1905-ci il mayın 11-də Bakı şəhərində baş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarşılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, 2 uşaq və 5 kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar.






## Ermənilər insanlara işgəncələr verib, sonra da qətlə yetirmişlər

Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşiliklərini ermənilər 1988-1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnaq dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905-ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu,qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər.

Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azərbaycanlı da işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular. Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsula general Q.Mayevski onun haqqında yazmışdı: ”1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur”.1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10 min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır-Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər.

***İ.ƏLİYEV***

# Əlinizi şillə üçün yox, tumar üçün qaldırın

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması "istiqaməti çərçivəsində hazırlanıb*





Zorakılıq həyatımızın hər anında qarşılaşa biləcəyimiz davranış növüdür, amma ailəmizdə qarşılaşanda bir çoxumuz haqlı olaraq qəbul edə, varlığı ilə barışa bilmirik. Çünki ailə bizim ən güvəndiyimiz, ən məhrəm hesab etdiyimiz qalamızdır. Bütün bəlalardan, təhlükələrdən ailəmizə sığınaraq qorunuruq, ən tənha hiss etdiyimiz anlarda ailəmizin varlığını xatırlayıb kimsəsiz olmadığımızı anlayırıq. Ailəmizdə baş verənləri başqalarına danışmamağımız da onu məhrəm hesab etməyimizdən qaynaqlanır. Sosial zorakılıq tez aşkarlansa da məişət zorakılığı uzun illər gizli qala, ona məruz qalan ailə üzvləri bu vəziyyətdə çox uzun müddət yaşaya bilər.

Təəssüf ki, məişətdə zorakılıq aşkar olunanda qanun təhrif olunmuş ənənəvi baxışlarla təzad təşkil edir. Məişətdə zorakılığa "özəl həyatdır", "ər-arvad arasında belə şeylər olur", "atadır, özü bilər", "ərdir, arvadına istədiyi kimi davrana bilər" kimi bəhanələrlə məişət zorakılığına haqq qazandırılır. Lakin araşdırmalar göstərir ki ailədə zorakılıq görən şəxsi məruz qaldığı vəziyyətdən daha çox bu cür yanaşmalar yaralayır. Buna görə də məişət zorakılığı inkar edilməməli və ciddi qəbul edilməli bir problemdir.





Məişət zorakılığı əsasən qadınlara və uşaqlara qarşı yönəldilir. Onu törədən şəxs çox vaxt kişilər olur. Məişət zorakılığının səbəblərini bioloji, psixoloji və sosial hesab etmək olar. Çox təəssüfedici haldır ki, ailədaxili zorakılığın bir növü də ailəiçi cinsi istismardır. Bu dövrümüzün ən çox narahatlıq doğuran məişət problemidir.

Məişətdə törədilən zorakılığa səbəb kimi göstərilən bioloji zorakılıq səbəblərinə ailədəki kişinin şizofreniya, paranoid şizofreniya və antisosial şəxsiyyət pozuqluğu kimi bəzi psixi pozğunluqlardan əziyyət çəkməsi daxildir. Məişət zorakılığı hallarında ən çox zorakılıq göstərən şəxsin kişi olması və bu aqressiv davranışların yaşa dolduqca azalmağa başlaması, zorakılıq tətbiqində kişi hormonlarının təsirli olduğunu göstərir. Əslində olmayan şeyləri görmək, reallıqdan uzaqlaşmaq, qısqanclıq və paranoya ilə müşahidə olunan şizofreniya zorakılığa səbəb ola bilər.

Qəzəbi idarə etmə bacarığı pozulan kişi antisosial birinə çevrilir, məsuliyyətsiz, düşüncəsiz, vicdansız, cinayətkar kimi xarakterləri yaranır. Bu xarkterlər onu ailə üzvlərinə zərər verməkdən həzz alan, zərrə qədər peşmançılıq duymadan rəftar edən birinə çevirir. Sosial həyatında tamamilə normal biri kimi tanınan, ailəsinə zorakılıq tətbiq etməyəcək biri kimi xarakterizə edilən bu insanlar müalicə olunduqda ailə üzvlərinə normal münasibətlərini bərpa edə bilirlər.

Ümumiyyətlə, ünsiyyət və dialoqun, habelə gündəlik ailədaxili müzakirələrin yetərli olmadığı, ailə fərdlərinin bir-birinə olan hörmət və inamının zədələndiyi vəziyyətlərdə zorakılıq işə düşür. Kişilər qadınlara hakim olmaq, onlar üzərində haqq sahibi olmaq, qadınları sıxışdırmaq, qarşı tərəfin çatışmazlıqlarını hər fürsətdə ona qarşı istifadə etmək, öz çatışmazlıqlarını ört-basdır etmək üçün zorakılıq etməyə başlayır. Psixo-terapevtlər zorakılıq etdiyi an insanın ən zəif olduğu an olduğunu deyir. Yəni, zorakılığa, şəxsiyyəti zəif, bacarıqsız kişilər əl atırlar.

Zorakılıq adət edilən, zamanla öyrənilən bir davranışdır. Təəsüflə qeyd etmək olar ki, öyrənmə mənbəyi də elə zorakılıq edənin ailəsidir. Uşaqlıq və yeniyetməlik dövründə məişət zorakılığının tez-tez yaşandığı bir ailədə böyüyənlərin zorakılığa meylli olduğu müşahidə edilib. Bundan əlavə, zorakılıq ailədən ailəyə miras kimi keçə bilən, nəsildən-nəsilə ötürülən davranış növüdür. İnsanlar arasında ünsiyyət bacarıqlarının yetərincə olmaması, hiss və düşüncələrini qarşı tərəfi narahat edəcək formada ifadə edilməməsi, əsassız ittihamlar, namus və əxlaqın ölçü vahidi kimi istifadə edilməsi də zorakılığın sosial səbəbləri sırasına daxil edilə bilər. Həmçinin, yoxsulluq, özünü şanssız hesab etmək, həyatdan gözlədiyinin qarşılığını ala bilməmək kimi sosial-iqtisadi faktorlar da zorakılığa səbəb olur.

Məişət zorakılığında ən çox rast gəlinən fiziki təzyiq formalarından ailədən birini silkələmək, döymək, silləmək, əşyalar atmaq, qarşı tərəfi itələmək, saçından tutmaq, hər hansı bir əşya ilə döymək, əllərini və qollarını bağlamaq, zorla cinsi əlaqədə olmaq, kəsici alətlər və odlu silahdan istifadə edərək kimisə yaralamaq, öldürmək kimi halları misal çəkmək olar. Ailədə mənəvi zorakılıq dedikdə, ailə üzvlərinin üstünə qışqırmaq, başqalarının gözü qarşısında onu alçaltmaq, qürurunu sındırmaq, fiziki zorakılıqla hədələmək, şəxsin öz hiss və düşüncələrini açıq ifadə etmək azadlığını əlindən almaq, onu özü kimi düşünməyə və hərəkət etməyə məcbur etmək, şəxsin hərəkət azadlığını məhdudlaşdıran, öz ailə üzvləri və ya dostları ilə ünsiyyətini qadağan edən, ruhi sağlamlığa zərər verən və fiziki təzyiq olmadan həyata keçirilən bütün hərəkətlər nəzərdə tutulur.




Ailədə iqtisadi zorakılıq da müşahidə edilən zorakılıq növlərindəndir. İnsanların işləmək və gəlir əldə etmək azadlığını əlindən almaq, təmin etməmək, gəlir əldə etmək üçün işləməyə məcbur etmək və onun gəlirlərini müsadirə etmək kimi hərəkətlər bu qəbildəndir. Ailədə uşaqların istismarı isə ən dəhşətli zorakılıq növüdür. Azyaşlının əqli və fiziki toxunulmazlığını pozan bütün davranışlara uşaq istismarı deyilir. Bundan əlavə, valideynlərin, övladlarının baxım, qidalanma, sığınacaq, istilik, geyim, sağlamlıq və təhsil kimi əsas həyati ehtiyaclarını ödəməməsi və ya bu məsələlərə diqqət göstərməməsi də uşağa qarşı etinasızlıq və zorakılıq hesab olunur.

Zorakılıq, bir insanın başqa bir insana edəcəyi ən böyük pislikdir, zorakılıq göstərilən insan ailə üzvüdürsə, dəhşəti ikiqatdır. Dillər söyərkən yox, sevərkən var olsun. Əllər şillə üçün yox, sığal, tumar üçün qalxsın havaya. Ailə, insanın maddi dünyada qazandığı ən müqəddəs qazancdır. Növbəti dəfə ailənin dəyərini bilməyənlərin aqibəti barədə də danışaqmı?

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
25 noyabr
2023-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Yaşayış yerində qeydiyyatda olanların yaşayış sahəsində pay hüququ varmı?

## *HÜQUQŞÜNAS AYDINLIQ GƏTİRDİ*





"Azərbaycan Respublikasında yaşayan hər bir şəxs, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bu məsələlər "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanunla tənzimlənir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, qanun yaşayış yeri üzrə qeydiyyat və olduğu yer üzrə qeydiyyat anlayışlarını fərqləndirir: "Öncədən onu da qeyd edək ki, yaşayış yeri və olduğu yer üzrə qeydiyyat heç kəsə qeydiyyatda olduğu yerdən daimi istifadə hüququ, yaşayış sahəsindən pay almaq hüququ vermir.

Yaşayış yeri və olduğu yer üzrə qeydiyyatın məqsədi Azərbaycan Respublikasında yaşayan şəxslərin uçota alınması, onların başqa şəxslər, dövlət və cəmiyyət qarşısında vəzifələrinin icra edilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi (sosial müdafiə, pensiya təminatı, hərbi xidmətə çağırış, məhkəmə qərarlarının icrası və s.) üçün zəruri şərait yaratmaqdır.

Şəxsin yaşayış yeri dedikdə tam həcmdə fəaliyyət qabiliyyətli şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri, xüsusi təhsil müəssisələri və digər bu kimi yaşayış yerləri başa düşülür. Şəxsin olduğu yer dedikdə isə, onun yaşayış yeri sayılmayan, müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və digər belə ictimai yerlər, habelə yaşayış binası (özünün, qohumunun, tanışının və b.) başa düşülməlidir. On dörd yaşı olmayan yetkinlik yaşına çatmayanların və ya qəyyumluq altında olan şəxslərin yaşayış yeri onların qanuni nümayəndələrinin - müvafiq olaraq valideynlərinin, övladlığa götürənlərin və ya qəyyumların yaşayış yeri sayılır.

On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanların (tam həcmdə fəaliyyət qabiliyyəti əldə edənlər istisna olmaqla) yaşayış yeri onların qanuni nümayəndələrinin - müvafiq olaraq valideynlərinin, övladlığa götürənlərin, yaxud qəyyumların və ya himayəçilərin razılığı ilə müəyyən edilir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qeydiyyatı həm yaşayış yeri, həm də müvəqqəti olduqları yer (valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələr, yataqxanalar, qəyyumun (himayəçinin), övladlığa götürən şəxsin yaşayış yeri) üzrə aparılır".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Yaşayış sahəsindən istifadə hüququ ilə bağlı münasibətlər Azərbaycan Respublikası Mənzil Məcəlləsinin və Azərbaycan Respublikası Mülki Məcəlləsinin müddəaları ilə tənzimlənir. Belə ki, - Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 228-ci maddəsinin və Mənzil Məcəlləsinin 123-cü maddəsinin birinci hissəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 iyul 2001-ci il tarixli Qərarına əsasən 2001-ci il sentyabrın 1-dən sonra yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar yaranan hüquq münasibətləri ilə bağlı mübahisələr Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinin qaydalarına uyğun, bu tarixədək yaranmış hüquq münasibətləri ilə bağlı mübahisələr isə Mənzil Məcəlləsinin 123-cü maddəsinin qaydalarına uyğun həll edilməlidir".

*Ayşən Vəli*

# Pensiyalarla bağlı qaydalar dəyişdi: yenilik nədir?



Nazirlər Kabineti sığorta-pensiya sisteminin təkmilləşdirilməsi, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti addım kimi, "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nda dəyişiklik edib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, yeni dəyişikliklərlə:

Ailə başçısını itirməyə görə pensiya təyinatı zamanı ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının nümayəndəsinin arayışı tələb edilməyəcək;

- Vaxtilə kolxozda çalışmış şəxslərin sığorta stajı hesablanarkən əmək kitabçasında əmək iştirakı günü (minimum əmək günü) qeydinin olması tələb edilməyəcək;

- 2017-ci il iyulun 1-dək 20 təqvimi xidmət ilindən çox xidmət etmiş hərbçilərə həmin vaxta qədər 20 ildən yuxarı göstərilmiş xidmətin hər ili üçün təminat xərcliyinin 3 faizi qədər əlavə hesablanacaq;

- Pensiyaların minimum məbləğə çatdırılması, indeksləşdirilməsi və maddi yardımın (əvvəlki ildə ödənilən) pensiyanın tərkibinə daxil edilməsi eyni tarixdə olarsa, hesablamalar aşağıdakı ardıcıllıqla yerinə yetiriləcək:

- Pensiya minimum məbləğə çatdırılacaq,

- Maddi yardımın bir aya düşən hissəsi pensiyanın tərkibinə daxil ediləcək,

- Pensiya indeksləşdiriləcək.

# Bekhemdən Messi açıqlaması: "O, ən təvazökar superulduzdur"



ABŞ-ın "İnter Mayami" futbol klubunun sahibi olan Devid Bekhem argentinalı hücumçu Lionel Messini ən təvazökar superulduz adlandırıb. "The Times" nəşrinin yazdığına görə, "Mançester Yunayted" və "Real" klublarının sabiq yarımmüdafiəçisi olan D.Bekhem argentinalı ulduz futbolçu haqqında düşüncələrini paylaşıb: "Komandaya və kluba sadiq olduğunu göstərmək üçün bazaya Leodan əvvəl gəlmək istəyirdim.

Onun necə gəldiyini, özünü necə peşəkar apardığını, bütün gənc futbolçulara nümunə olduğunu görmək istəyirdim. O, superulduzdur, amma ən təvazökar superulduzdur. Mən, sadəcə, onun məşqini izləməyi sevirəm."

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000